# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 74 (3398) Cümə axşamı / 26 avqust - 1 sentyabr 2021-ci il Qiyməti 40 qəpik


# Kabil hava limanında yaşananlar





## Sülhməramlımız hafta.az-a danışdı

***"Taliban" hakimiyyəti ələ alar-almaz ölkə xaosa sürükləndi. Hər halda bu ölkə ilə az-çox əlaqəsi olanlar belə deyir. Nisbətən azad yaşamaq təcrübəsi əldə etmiş insanlar xaricə qaçmağa çalışır. Xüsusilə də gənclər və qadınlar. Gənclər yeni dünya qurmaq arzusunda, qadınlar isə sadəcə insani hüquqlarını saxlamaq üçün "Taliban"ın sərt hökmlərindən qaçmaq istəyirlər. Bu gün Əfqanıstanda gərgin hərbi-siyasi hadisələrin mərkəzində isə Həmid Kərzai adına Kabil Beynəlxalq Hava Limanı dayanır. Qaçqınlar, eləcə də xarici ölkə vətəndaşları gözlənilən təhlükədən məhz burada xilas ola bilirlər - təyyarələrə oturub Əfqanıstan torpaqlarını birdəfəlik tərk edirlər...***

Hava limanının təhlükəsizliyini qardaş Türkiyənin hərbi qüvvələri qoruyur, özü də Azərbaycan əsgərləri ilə birlikdə. 120 nəfərlik hərbi qüvvəmiz illərdir türk əsgərlərlə çiyin-çiyinə Kabil hava limanını göz bəbəyi kimi qoruduqları kimi, bugünki çətin şəraitdə də son ümidinə bağlanıb bura pənah gətirənlərə arxa olurlar. Bunlardan biri də Azərbaycan sülhməramlı qüvvələrinin hərbçisi Zaur Həkimovdur. Əslən Şabran rayonundan olan Zaur Həkimov Hafta.az-a eksklüziv müsahibəsində bildirdi ki, Əfqanıstanda həqiqətən də daxili vəziyyət çox qarışıqdır və bunu canını götürüb hava limanına qaçan minlərlə insanın fəryadından da görmək mümkündür.

**"İmkan daxilində insanlara kömək eləməyə çalışırıq. Sənədlərini yoxlayıb hissə-hissə hava limanının ərazisinə buraxırıq. Vahimənin təsirindən hündür qoruyucu divarlardan aşıb içəri keçənlər də olur. Əlbəttə, öz vəzifəmizi yerinə yetirərək əraziyə kənar keçidlərin qarşısını alırıq, amma təsadüfən keçənlər olur",** - deyən Z.Həkimovun sözlərinə görə, hava limanının ərazisinə keçənlərin böyük hissəsi əsasən xarici ölkə vətəndaşlarıdır. Deyir ki, əcnəbilər ya özləri bura gəlir, ya da sistemli şəkildə gətirilir. Buradan təyyarələrlə vətənlərinə yola salınır, yəni təhliyə edilirlər.

Maraqlıdır, tarixən Azərbaycanla sıx əlaqələrə malik olan dost Əfqanıstanda azərbaycanlılar da varmı? Onların ölkəyə dönüşü necə həyata keçirilir? Müsahibimiz deyir ki, indiyədək heç bir soydaşımıza rast gəlməyiblər. "Əfqanıstanda azərbaycanlılar var, ya yoxdur, hər halda bu neçə vaxtda rastımıza çıxan olmayıb, arzu edirik heç çıxmasınlar da. Onların həyatı bizim üçün çox dəyərlidir, istəməzdik əziyyət çəksinlər", - deyən sülhməramlımız əlavə etdi ki, amma qardaş türk xalqının nümayəndələrinə çox rast gəlirlər. Həm Türkiyə vətəndaşları, həm də türkiyəli olmayıb, amma türk dilində danışan insanları, yaxud da əfqanıstanlı olub Türkiyə vətəndaşlığını qəbul edənlərlə də çox rastlaşdıqlarını deyən həmsöhbətimiz onlara hörmət göstərib, qayğılarına qaldıqlarını vurğuladı.

Bu arada, Türkiyə telekanallarına müsahibə verən gənc türkiyəli xanım artıq iki aymış ki, Əfqanıstanda həkim olaraq çalışdığını, amma "Taliban" hakimiyyətə gələndən sonra hava limanına qaçdığını, köməyinə məhz azərbaycanlı hərbçilərin yetişdiyini demişdi. Müsahibimiz bildirdi ki, bəli, həmin həkim xanımı yaxşı xatırlayır. O məhz onların nəzarət etdiyi qapıya gəlmişdi və deyildiyi kimi, onu təhlükəsiz şəkildə içəri buraxmışdılar.

Z.Həkimov qeyd etdi ki, hava limanının ərazisinə keçmiş insanlar ac qalmasınlar deyə onlara yemək-içmək də verirlər. "Bura hər gün minlərlə insan üz tutur ki, əksəriyyəti quru canını götürüb gəlir. Demək olar ki, heç kimin yükü olmur. Sadəcə, körpə uşaqlıların əlində kiçik əl çantası olur, vəssalam. Biz onların qeydinə qalırıq, hava limanının ərazisində yeməklə, içəcəklə təmin edirik. Bizə verilən hərbçi yeməyindən onlara pay da ayırırıq", - deyən müsahibimiz acınacaqlı, amma həm də maraqlı bir hadisədən də söz açdı: "Yiyəsiz bir körpə tapmışdıq, haradasa 3-4 aylıq olardı. Gördüm acdır, körpəli qadın axtarırdıq ki, tapıb uşağı verim, yedirtsin, amma tapa bilmədim. Məcbur olub bizə verilən paket süddən içirdim. Sonra da şükür ki, atasını tapdıq, verdik. Anası ölmüşdü...".



Z.Həkimov deyir ki, körpəyə yemək axtaranda başqa bir ürəksızladan olayla üzləşib. "Yerdə bir tərəfdə uzanıb qalmış azyaşlı qız uşağı gördüm. Əvvəl öldüyünü zənn elədim, sonra gördüm yox, yaşayır. Ayaqyalın qaçarkən daş-kəsək ayaqlarını yaralayıb, qançir eləmişdi. Aparıb ayaqlarını silib-təmizlədim, öz corablarımı çıxarıb geyindirdim. Yemək verdik, su içirdik, bir az özünə gəldi. Nəhayət, əmisini tapdıq, təhvil verdik. Onun da valideynləri ölmüşdü", - müsahibimiz bildirir.

**Videolardan izlədiyimiz kimi, insanlar körpələrini qapıda-divarda dayanan əsgərlərə verib, "Heç olmasa uşaqları xilas edin", - deyirlər. Maraqlı sual yaranır: bəlkə özünə heç nə olmayacaq? Bəs sonra ömürboyu öz əli ilə təhvil verdiyi uşaqlarını necə tapacaq bu valideynlər? Həyatları övlad həsrəti ilə yanmayacaqmı onların?**

Z.Həkimov deyir ki, həmin hadisələr tez-tez yaşanır və əslində, "Biz ölürük, körpələrimizi xilas edin" məsələsi də deyil. "Qapıların önündə elə basabas olur ki, kimin imkanı varsa, körpəsini verir əsgərlərə ki, izdihamda əzilməsinlər. Həm də uşaqları içəridə olan insanların hava limanının ərazisinə daxil olması şansı yüzdəaltmış faiz artır. Bunu bildikləri üçün çoxu əvvəlcə körpələrini içəri salmağa çalışır. Sonra özləri içəri keçəndə uşaqlarını götürürlər. Bizdə içəridə ayrıca otaqlar var, uşaqlar ora gətirilir. Valideynlər də içəri girəndə uşaqlarını oradan rahatca götürə bilirlər. Hər halda biz də insanıq, müsəlmanıq, çalışırıq, hər kəsə az da olsa köməyimiz dəysin", - Z.Həkimov bildirir.

Müsahibimiz sonda dedi ki, bu gün Əfqanıstanda nə baş verir-versin, onlar özlərini çox rahat və təhlükəsiz hiss edirlər. Azərbaycandan komandanlığın hər gün onlarla əlaqə saxlayıb, maraqlandığını deyən müsahibimiz inşAllah, Kabildə olduqları müddətdə öz vəzifələrini şərəflə yerinə yetirəcəklərini vurğulayır.

Xatırladaq ki, Azərbaycan Ordusunun ilk 22 nəfərlik sülhməramlı tağımı 2002-ci il noyabrın 20-dən Əfqanıstan Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri tərkibində fəaliyyət göstərir. Hazırda bu ölkədəki sülhməramlılarımız 120 nəfərdən ibarətdir.

*✍ Vüsal Tağıbəyli*

---

MÜSAHİB

## Əfqanıstan ordusunun 200 mini "ölü can"lardır



**Tərlan Eyvazov,**
hərbi ekspert,
ehtiyatda olan kapitan

***"Xarici firmalar da Əfqanıstanda taliblərin nəzarəti altındakı ərazilərdə tikinti, təsərrrüfat və s. işləri quranda mütləq taliblərə 30-40 faiz "haqq" ödəməli idilər...". Hərbi ekspert, ehtiyatda olan kapitan Tərlan Eyvazovla Hafta.az üçün növbəti söhbətimizdə Əfqanıstandakı son olay və proseslərdən danışdıq. Öyrəndik ki, Tərlan bəy 2 ilə yaxın müddətdə keçmiş SSRİ-nin Əfqanıstandakı hərbi-siyasi əməliyyatlarında iştirak edib. Eyni zamanda həmin dövrdə, eləcə də son onilliklərdə bu ölkənin tarixi, orada baş verən ictimai-siyasi proseslərlə yetərincə maraqlanıb...***

*Taliblərin amerikanlara boyun əyməsi qeyri-mümkündür...*


▸▸ Səh. 5


---

MÜSAHİB



**Sərdar Cəlaloğlu,**
ADP sədri

■ "Taliban" hakimiyyətə gələndə onların Türkiyə ilə bağlı bəyanatları olduqca sərfəli idi...

■ Əfqanıstanın dünyaya inteqrasiya etməsi üçün rejimin özünün dünyanın qəbul edəcəyi şəkildə olması lazımdır...

■ İstəyirlər ki, dünya "Taliban"dan necə üz döndəribsə, Azərbaycandan da üz döndərsin...


▸▸ Səh. 3


---

GÜNÜN FOTOSU...




**Əfqan qadınların harayı...**

---

GÜNÜN SİTATI



*"Regionumuzda daimi sülh üçün yeni fürsətləri Ermənistan dəyərləndirərsə, biz də lazım olan addımı atarıq"*

**Rəcəb Tayyib Ərdoğan,**
Türkiyə Prezidenti

---

KARİKATURA




**Hər il vaksinlər milyonlarla insanın həyatını xilas edir...**

---

## "Xalq "Taliban"ı sevmir..."

**Əsədullah Oğuz,**
Əfqanıstanəsilli türkmən yazıçı

İndiyədək Orta Asiya respublikalarından heç biri Əfqanıstanda yaşayan soydaşlarımıza dəstək verməyib və bu gün də vermir.


▸▸ Səh. 5


---

STATİSTİKA



**■ Paytaxtda təhsil işçilərinin 26 486 nəfəri vaksinasiya prosesinə qoşulub. Bakıdakı təhsil müəssisələrində çalışanların vaksinasiya prosesi davam edir.**

Paytaxtın Pirallahı, Xəzər, Binəqədi, Nəsimi, Sabunçu, Yasamal və Suraxanı rayon məktəbləri vaksinasiyanı nümunəvi həyata keçirən təhsil müəssisələri sırasındadır. Paytaxt üzrə 37 məktəbdə təhsil işçilərinin 90 faizindən çoxu vaksinasiyadan keçib.

---




▸▸ Səh. 7


## Uşaqlar arasında yayılan COVİD-19-un simptomları açıqlandı

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev Vətən Müharibəsi qəhrəmanlarının və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərin, eləcə də ölümündən sonra həmin ad verilmiş şəxslərin ailə üzvlərinin mənzillə təmin edilməsini həyata keçirsin; bu Sərəncamın icrası ilə bağlı görülmüş işlər barədə Azərbaycan Respublikasının Prezidentinə mütəmadi olaraq məlumat versin; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Müəyyən edilir ki, bu Sərəncamın 1.1-ci bəndində nəzərdə tutulan şəxslərin mənzillə təmin edilməsi bu məqsədlə Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nazirliyin balansına verdiyi və ya Nazirliyin həmin məqsəd üçün əldə etdiyi mənzillər hesabına həyata keçirilir.

Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu Nazirliyin müraciəti əsasında bu Sərəncamın 1.1-ci bəndində göstərilən məqsəd üçün balansında olan mənzillərin Fondun mənfəəti hesabına həmin Nazirliyin balansına verilməsini təmin edəcək. Nazirlər Kabinetinə tapşırılır ki, bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

## "Krım platforması" Rusiyanın işğalçı üzünü birbaşa ortaya qoyur



> *Belə bir konfransın keçirilməsi dünyanın çox əhəmiyyətli hissəsinin anti-Rusiya platformasında birləşməsinə səbəb yaradır*

***Avqustun 23-də Kiyevdə 40-dan çox ölkə və beynəlxalq təşkilatın nümayəndə heyətinin iştirak etdiyi "Krım Platforması" zirvəsi açıldı. Ukraynada "Krım Platforması"na böyük önəm verilir. Gözləntilər nədir və niyə Azərbaycan bu toplantıda iştirak etmədi?***

Bu barədə hafta.az-a danışan politoloq Natiq Miri hesab edir ki, "Krım Platforması" zirvəsi Ukrayna hökuməti adına çox önəmlidir. Onun sözlərinə görə, bu zirvənin əsas məqsədi Krım məsələsində Ukraynaya siyasi dəstəyin verilməsidir. Eyni zamanda "Krım Platforması" konfransına qatılmaq dolayısı ilə Rusiyanın Krım, Sevastopol və Donbas vilayətlərini işğal etməsi faktını təsdiq etməkdir.

"40-a qədər ölkənin bu prosesdə iştirakı çox ciddi siyasi addımdır və Rusiyanın işğalçı üzünü birbaşa ortaya qoyur. Bu zirvənin toplanması təzyiq mexanizmi olaraq yenidən Rusiyaya qarşı çevriləcək. Ona görə də Rusiya bu platformanın keçirilməsindən çox ciddi narahatdır".

Natiq Miri Azərbaycanın "Krım platforması"nda iştirakdan imtinasına da toxunub:

"Azərbaycan Rusiya adına bu cür addımları dəfələrlə atıb. Çox maraqlıdır ki, son 30 ildə bu cür Rusiya yönümlü addımların atılmasına və bütün sərhədlərin çərçivəsinin gözlənilməsinə baxmayaraq bu ölkə Azərbaycana doğru yarım addım da atmadı.

Bu günün özündə bu davam edir və 10 noyabr bəyannaməsindən irəli gələn müddəaların yerinə yetirilməsi istiqamətində işlər görülmür.

Bu cür ehtiyatlı addımlarla Rusiyanı ram etmək, öz tərəfinə çəkmək mümkün deyil. Rusiya aqressiv, işğalçı bir ölkədir. Son zamanlarda dağıdıcı gücü ilə yalnız özünün istədiklərini əldə edib və bundan sonra da Rusiyanın siyasətini dəyişmək mümkün deyil. Ona görə də Azərbaycanın dost Ukraynanın keçirdiyi tədbirdə iştirak etməməsini doğru saymıram".

Politoloq bildirib ki, belə bir konfransın keçirilməsi dünyanın çox əhəmiyyətli hissəsinin antirusiya platformasında birləşməsinə səbəb yaradır. "Ukraynanın Krımı geri qaytarması üçün dəstək məsələsində ciddi perspektivlər açır. Bu proses Ukraynanın xeyrinə gedən prosesdir. Bu konfransdan sonra proseslər Ukraynanın xeyrinə dəyişəcək".

✍ ***Tahirə Qafarlı***

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Ümidlərin doğulduğu gün...

## Gündəm

***Bu gün Azərbaycan Respublikasının 1-ci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın doğum günüdür. Onun birbaşa himayəsi ilə Azərbaycanda muğam sənətinin qorunması, inkişafı və təbliği sahəsində böyük işlər görülüb. Azərbaycan muğamının UNESCO-nun bəşəriyyətin qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil olunması da bilavasitə bu fəaliyyətin nəticəsidir.***





**Mənsum İbrahimov,**
Xalq artisti, muğam ifaçısı



**Elşad Mirbəşiroğlu,**
Milli Məclisin deputatı



**Səidə Qocamanlı,**
hüquq müdafiəçisi



**Novella Cəfəroğlu,**
hüquq müdafiəçisi

> *Heydər Əliyev Fondu yaranandan bizim muğamımızın yeni inkişaf dövrü başlayıb*

> *Mehriban xanımın Heydər Əliyev Fondunun Prezidenti kimi Azərbayacanda həyata keçirdiyi xeyriyyəçilik missiyası həm də bir örnəkdir*

> *Mehriban xanım məhz millət vəkili olduğu zamanlarda böyük amnistiyaların təklifi ilə çıxış edib*

> *Mehriban xanıma müraciət edən heç bir kəs köməksiz qalmayıb*

■ **Xalq artisti, muğam ifaçısı Mənsum İbrahimov hafta.az-a Fondun ötən illərdə milli mədəniyyətin təbliği sahəsində həyata keçirdiyi uğurlu layihələrdən danışıb.**

Bildirib ki, bu gün Azərbaycan muğamının dünyada tanınmasında, muğamımızın inkişaf etməsində Mehriban xanım Əliyevanın çox böyük diqqət və qayğısı var.

"Onun diqqəti sayəsində bu gün muğamımız bütün dünyada maraqla qəbul olunur və sevilir. Heydər Əliyev Fondu yaranandan bizim muğamımızın yeni inkişaf dövrü başlayıb. 2005-ci ildən başlayaraq Heydər Əliyev Fondu tərəfindən muğam televiziya müsabiqələrinə start verilib. Bu günə qədər 7 muğam televiziya müsabiqəsi keçirilib ki, nəticədə onlarla gənc muğam ifaçısı yetişib, artıq onlardan bir çoxunun fəxri adları var. Operada, ana televiziyamızda çalışır, ustadlarla bərabər Azərbaycan muğamını bütün dünyada təbliğ edirlər. Heydər Əliyev Fondunun təşəbbüsü ilə 6 Beynəlxalq Muğam Festivalı keçirilib. Bundan başqa, "Qarabağ xanəndələri" Muğam toplusu çap olunub. UNESCO xətti ilə hazırlanmış bu alboma belə bir adın seçilməsi Qarabağın əzəli və əbədi Azərbaycan torpağı olduğunu bütün dünyaya nümayiş etdirmək istəyindən irəli gəlmişdir.

Eyni zamanda Azərbaycan muğamının Avropada, Qərb ölkələrində təbliği ilə bağlı çox böyük işlər görülüb. Ali Baş Komandamızın rəhbərliyi ilə bizim müzəffər Ordumuz 44 gün ərzində Qarabağda bir tarix yazdılar. Qələbəmizdən 6 ay sonra Heydər Əliyev Fondu tərəfindən Şuşamızda möhtəşəm "Xarıbülbül" Fesrivalı keçirildi. Mən özüm də orada iştirak etdim. Elə bir möhtəşəm festival keçirildi ki, bütün dünya onu izlədi. Bununla da dünyaya bir mesaj verildi ki, torpağın sahbləri qayıdıb, artıq Şuşamızda, Qarabağımızda Azərbaycan muğamı səslənir.

2008-ci ildə Bakıda Beynəlxalq Muğam Mərkəzi inşa olundu. Ağcabədidə, Ağdamda, Füzulidə və nəhayət, Sumqayıtda da muğam mərkəzləri istifadəyə verildi.

Hazırda ölkəmizdə 5 Muğam Mərkəzi fəaliyyət göstərir. İnşAllah düşünürəm ki, tezliklə bizim azad olunmuş bölgələrimizdə muğam mərkəzləri, teatr binaları inşa olunacaq.

Qarabağımız azad olunandan sonra Şuşamızda bütün tarixi abidələrin bərpası Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. Bu gün Mehriban xanım xalqımız tərəfindən çox sevilir.

26 avqust - Beynəlxalq Muğam Günüdür. Həm də bizim əzizimiz, dəyərlimiz, ölkəmizin birinci xanımı, 1-ci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əlievanın doğum günüdür. Mən fürsətdən istifadə edib bütün ustadlarımızın, muğam ifaçılarımızın adından, öz adımdan dəyərli Mehriban xanımı təbrik edirəm. İnşAllah, bundan sonra Heydər Əliyev Fondu tərəfindən Qarabağımızda yeni-yeni festivallar keçirəcəyik".

Mehriban xanım, Heydər Əliyev Fondunun Prezidenti kimi, xeyirxah və humanist insani dəyərlərə tapınaraq ümummilli liderin zəngin dövlətçilik irsinin bütün dünyada tanıdılması və təbliği istiqamətində ardıcıl işlər aparır. Yaradılarkən çoxlarının yalnız xeyriyyəçilik yönümündə fəaliyyət göstərəcəyini zənn etdiyi fond zaman baxımından qısa müddətdə reallaşdırdığı çoxşaxəli layihələrin miqyası ilə gözlənildiyindən xeyli böyük amalları uğurla gerçəkləşdirir.

■ **Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu bu barədə hafta.az-a danışarkən ilk növbədə qeyd etdi ki, Heydər Əliyev Fondunun yaradılması ilə Azərbaycanda həm də xeyriyyəçilik institutunun əsası qoyuldu.** "Heydər Əliyev Fonduna rəhbərlik edən Mehriban xanım Əliyeva müxtəlif istiqamətlərdə çox mühüm xeyriyyəçilik layihələrini həyata keçirdi. Azərbaycanda elə bir ailə yoxdur ki, bundan faydalanmasın. Bu baxımdan, Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondunun Prezidenti kimi Azərbayacanda həyata keçirdiyi xeyriyyəçilik missiyası həm də bir örnəkdir. Diqqət yetirsək görərik ki, Azərbaycanda vətəndaşların əksər hallarda son ümid yeri Heydər Əliyev Fondu olub. Ona müraciət edənlər hər zaman çağırış və istəklərinə müsbət reaksiya görüblər. Bu da təbii ki, Fondun işinin uğurlu təşkilinin, vətəndaşlara həssas yanaşmasının göstəricisidir. Heydər Əliyev Fondu dünya mədəni irsinin qorunması işinə də çox böyük töhfələr verib.

Bildiyimiz kimi, Mehriban xanım həm də UNESKO-nun xoşməramlı səfiri kimi dünyada mədəniyyət, elm, təhsil sahəsində əlaqələrin qurulmasında, inkişaf etdirilməsində çox böyük rol oynayıb. Onun fəaliyyəti həm də dünyada barışın, sülhün əsas elementlərini təşkil edir". E.Mirbəşiroğlu bildirib ki, Fondun fəaliyyətində Ermənistanın təcavüzkarlıq siyasətinin ifşası, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, habelə işğal nəticəsində tarixi torpaqlarından didərgin düşmüş məcburi köçkünlərin hüquqlarının beynəlxalq miqyasda qorunması məsələləri xüsusi yer tutur.

"Heydər Əliyev Fondunun ən uğurlu layihələrindən hesab edilən "Qarabağ həqiqətləri" silsiləsi buna bariz nümunədir". E.Mirbəşiroğlu bildirib ki, artıq tarixə qovuşmuş münaqişə vəziyətində Azərbaycanın ədalətli mövqeyinin intensiv olaraq dünya ictimaiyətinin diqqətinə çatdırılması istiqamətində Heydər Əliyev Fondunun misilsiz xidmtləri olmuşdur.

"Fond tərəfindən bir neçə sayt yaradılıb və o saytlarda Azərbaycan həqiqətləri müxtəlif dillərdə dünyaya çatdırılır, Ermənistanın işğalçılıq siyasəti ilə bağlı dünya xalqlarında, dövlətlərində aydın təsəvvür formalaşdırılırdı. Ayrıca Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva tərəfindən 2008-ci ildən "Xocalıya Ədalət" kampaniyasına start verilmişdi. Ermənistanın Xocalıda törətmiş olduğu soyqırımla bağlı dünya məlumatlndırıldı. Bunun sayəsində dünyanın 12 ölkəsi Xocalını soyqırımı kimi tanıyıb".

■ **Hüquq müdafiəçisi Səidə Qocamanlı hafta.az-a bildirdi ki, Mehriban xanım ölkənin birinci xanımı kimi bütün sahələrdə gördüyü işlərlə xalqın sevgisini qazanıb.**

Onun fikrincə, Mehriban xanımın Azərbaycan ailələrinə, bütövlükdə insanlara göstərdiyi diqqət elə insan haqlarının qorunmasıdır.

"Mehriban xanım insan hüquqları sahəsində çox böyük işlər görüb. Gəlin unutmayaq ki, o bir anadır, bir həyat yoldaşıdır. Hər bir ailənin, hər bir uşağın problemi ona çox yaxındır. Mehriban xanım bunların hamısını ürəyinə çox yaxın buraxır və həll olunmasında da əlindən gələn köməklikləri, yardımları edir.

Mehriban xanım məhz millət vəkili olduğu zamanlarda böyük amnistiyaların təklifi ilə çıxış edib və böyük əfv, amnistiyalar imzalanıb. Məhz 1-ci Xanımın təşəbbüsü ilə bizim əyalətlərdə, Bakının özündə nə qədər məktəblər, xəstəxanalar, reablitasiya mərkəzləri açılıb. Nə qədər qadına, uşağa yardım olunubdur. Yəni bu insan böyük bir humanizmin daşıyıcısıdır. Ona görə də Mehriban xanımın gördüyü işlərin hamısı onun həyat tarixinə yazılıb. Biz 44 günlük müharibədən sonra qazandığımız qələbədə bir ana kimi onun necə böyük rolunun da olduğunun şahidi olduq. Şuşada "Xarıbülbül" Festivalının keçirilməsi, idarəçiliyi altında işləyən Fondun azad olunmuş rayonlarımzda gördüyü işlər əlbəttə ki, hamısı onun imzası ilə olub. Mən arzu edərdim ki, bu imza, bu ad hələ çox uzun illər yaşasın, onun gördüyü işlər özünün töhfəsini vətənə, dövlətə milətə versin".

■ **Hüquq müdafiəçisi Novella Cəfəroğlu da hafta.az-a müsahibəsində Mehriban xanımın fəaliyyətini misilsiz hesab etdi. Onun sözlərinə görə, Mehriban xanım Əliyevanın insan haqlarının qorunması tək əvf və amnistiyaların verilməsi təşəbbüsü ilə bitmir. Hansı ki, son əfv təşəbbüsündən sonra 1000-dən çox insan azadlığa çıxdı:**

"İstərdim ki, növbəti əfvlər olsun. İnsanlar həbsxanalardan çıxarılsın, ailələrdə sevinc olsun.İnsan haqlarının qorunması hər bir insana edilən qayğı və diqqətlə də ölçülür. Bu gün Mehriban xanımın birbaşa qayğısı ilə Vətən uğrunda savaşıb yaralanan qazilərimizin müalicəsi ilə bağlı çox işlər görülür. Bir çox qazilərimiz müalicə üçün Türkiyə və digər xarici ölkələr göndərilirlər. Şəhid ailələri dövlətin böyük diqqəti ilə əhatə olunur. Azərbaycanda hər bir insanın hüquqlarının qorunması istiqamətində böyük işlər gedir. Mehriban xanım Əliyevaya müraciət edən heç bir kəs köməksiz qalmayıb.Uşaq evləri, sağlamlığı məhdud insanların reablitasiyası, eləcə də yeni məktəblərin açılması, bütün bunlar insan haqqının qorunmasıdır və Mehriban xanımın bu sahədəki işlərini hər kəs görür, bilir. Təbrik edirəm, uzun ömür arzulayıram. Çox gözəl ki, Azərbaycanda belə Xanımımız var".

✍ ***Tahirə Qafarlı***

# Azərbaycanda vətəndaş müharibəsi istəyirsiniz?!

## Müsahib

***Bu** gün «Taliban»ın siyasi islam üzərindən hansı yeni quruluşu yaradacağı müzakirə obyektindədir. «Taliban» hansı addımları atacaq və kimdən dəstək alacaqdır... Bu və ya digər məsələlər haqqında ADP sədri Sərdar Cəlaloğlu maraqlı fikirlər söyləyib.*



**Sərdar Cəlaloğlu,**
ADP sədri

***- «Taliban»ın Əfqanıstanda qurduğu rejim İslam qaydalarına nə dərəcədə ziddir? Siyasi İslamla «Taliban» arasında ziddiyyətlər varmı?***

- «Taliban» insanları məcbur etməklə insanları Allaha daha çox yaxınlaşdırır? Qəlbində Allaha məhəbbət yoxdursa, öz bildiyini edəcək. Bu məcburiyyət insanların vicdan azadlığına qəsd və İslam prinsiplərinə, beynəlxalq hüquq normalarına ziddir. «Taliban»ın ikinci hakimiyyəti göstərir ki, əvvəlki səhvlərindən dərs çıxarmır. Əfqanıstanda puştunların arxasında Pakistan durur, taciklərin arxasında İran və Rusiya. İndiki halda Türkiyə ilə Pakistan arasında əlaqələr buna ümid verir ki, orada türklərlə puştunların koalisiyasını yaratmaq mümkündür. Bununla da orada Türkiyə modelinə uyğun bir İslam modeli yaratmaq mümkündür.

Təsadüfi deyildir ki, «Taliban» hakimiyyətə gələndə onların Türkiyə ilə bağlı bəyanatları olduqca sərfəli idi. «Taliban»ın Əfqanıstanda yaradacağı rejimin Türkiyə tərəfindən qəbul ediləcəyi ilə bağlı mesajlar verilib. Onlar Türkiyədən yardım alıb müttəfiq olmaq istəyirlər. Görürük ki, yenə də Rusiya, İran dərhal bəzi qurumları səfərbər edib Əfqanıstanda yeni bir vətəndaş müharibəsi başlatmağa hazırlaşırlar.

Bu, çox təhlükəli məsələdir. Əfqan xalqı 40 ildən artıqdır müharibənin içərisindədir. Bu müharibə Əfqanıstana kənardan sırınıb. Xarici dövlətlər bu və ya başqa qrupları maliyyələşdirərək müharibə yaradır. Amerika etiraf edir ki, Əfqanıstana 1 trilyon dollar pul qoyub. Eyni pulu Rusiya, Çin və digər ölkələr də qoyub. Əfqanıstanda xalqın azad seçiminə imkan verilmir. Mənə elə gəlir ki, Türkiyə ilə Pakistan Əfqanıstanda bir yerdə fəaliyyət göstərəcəksə orada sabitliyə nail olmaq mümkün olacaq.

***- "Taliban» belə bəyanat verir ki, Əfqanıstanda əmirlik qurulur, hər şeyi bir adam təyin edəcək və dövləti şəriət qanunları ilə idarə edəcəklər. Bu hansı siyasi quruluşdan söz açır?***

- Əvvəla, sivil idarəçilik normalarının 90 faizi şəriət normalarına uyğundur. "Şəriət normaları" deyəndə biz qorxuruq, elə bilirik bu, qeyri-normaldır. Halbuki 1966-cı ildə Yunesko Ümum-İslam İnsan Hüquq və Azadlıqları Bəyannaməsini qəbul etdi. Əgər o Bəyannaməyə baxsanız və BMT-nin 47-ci ildə qəbul etdiyi Ümumi İnsan Hüquq və Azadlıqları Bəyannaməsinə baxsanız, görəcəksiniz ki, bu bəyannamələr arasında çox cüzi fərqlər var. Bir İslam dövləti durub orada İslam hüquq və azadlıqlarını bərpa etsə, bu, dünyanın ən demokratik ölkələrindən biri olar.

«Taliban»ın əmirlik yaratması, ölkəni bir nəfərin idarə etməsi boş şeylərdir. Bu, «Taliban»ın indiki şərtlər daxilində mövqeyidir. «Taliban» Türkiyədən müəyyən dəstək alacaqsa, Ankara Əfqanıstanda belə bir rejimin yaranmasına imkan verməyəcək. Əfqanıstanın dünyaya inteqrasiya etməsi üçün rejimin özünün dünyanın qəbul edəcəyi şəkildə olması lazımdır. İslam ölkələri arasında radikal ölkə Səudiyyə Ərəbistanı sayılsa da, orada çox ciddi islahatlar həyata keçirilib. Əfqanıstandan əvvəl Pakistan, İran İslam respublikalarıdır. Bunların heç birində «Taliban»ın Əfqanıstanda həyata keçirdiyi siyasət həyata keçirilmir. Bu baxımdan «Taliban» əvvəlki kimi çox radikal, İslam adı altında İslama uyğun olmayan addımlar atacaqsa, hakimiyyətdə qala bilməyəcək. «Taliban»ın hakimiyyətinin atdığı addımların 90 faizi İslama ziddir. İslamda zorakılıq yoxdur, qadınlarla kişilər eyni hüquqdadır. Allah-Taala kişi ilə qadını eyni hüquqda görür, əmr edir ki, müsəlmanlar təhsil alsınlar, oxusunlar. Sən necə müsəlmansan ki, qadınlara deyirsən oxumaq olmaz, televizora baxmaq olmaz. Düzdür, biz də öz qadınlarımızı bir çox televiziya verilişlərinə baxmağa qoymuruq. Həmin efirlər pozğunluğu təbliğ edir. Bu, başqa məsələdir. Amerikanın özündə də publik və kabel televiziyaları var. Bu kabel televiziyalarında hər cür açıq-saçıq verilişlər verilir. Publik televiziyalarda, ancaq elmi, mədəni, əxlaqlı verilişlər olur. Demokratiya tələb edir ki, hər bir insana onun istədiyi yaşamaq şəraitini verəsən, bu zaman bir insan başqasının istəklərinə mane olmasın. Yəni əgər biri istəyirsə ki, intim filmə baxsın, onun özü üçün elə bir film göstərmək imkanı yaradılır. Biri istəyir ki, tarixdən, elmdən, mədəniyyətdən nəsə öyrənsin, ona da elmi verilişləri təqdim etmək lazımdır. Tutaq ki, Azərbaycan televiziyalarında ancaq boşboğaz ucuz şoulardır. Məsələn, ciddi, tarixi kinolar yoxdur, elmi verilişlər yoxdur. Elmi-tərəqqinin təbliği ilə bağlı verilişlər yoxdur. Bu o deməkdir ki, mən Azərbaycan televiziyalarına baxsam, bir dənə yenilik öyrənə bilmərəm.

«Taliban» kütləvi televiziyalarda xalqın milli-mənəvi dəyərlərinə zidd verilişləri qadağan eləməlidir. Bütün dünya dövlətləri, eləcə də Amerika bunu qadağan edib. Demokratiya bir xalqın dini və milli-etnik dəyərlərində yaşamaq azadlığı deməkdir. Bir adam xristiandırsa, sən onu məcbur etməklə müsəlman olan deyil. Bir adam türkdürsə və o türk adət-ənənəsi ilə yaşaya bilmirsə, bu, demokratiya deyil. Demokratiya xalqa onun kim olduğunu verə biləcək siyasi rejimdir. İndi dünyada müdaxilələr var, xalqları əsarətdə saxalamaq üçün onların etnik kimlikərini sıradan çıxarmaq, etnik kimliklərini unutdurub, tarixlərini yaddan çıxarmaq istəyirlər. Məsələn, Azərbaycanda da insanlara yanlış təsəvvürlər verirlər. Guya din gerilik mənbəyidir. Halbuki din elmdən də çox cəmiyyəti irəliyə apara biləcək vasitədir.

> *İstəyirlər ki, dünya «Taliban»dan necə üz döndəribsə, Azərbaycandan da üz döndərsin*

İslam ölkələrindəki bu təcrübə İslam dini deyil. Dünyada mövcud olan 1 milyard müsəlmanın 90 faizi həqiqi İslamda deyil. Halbuki Qurani-Kərim insanlara ilahi bir yol - Allahın yoıunu təklif edir. Məhəmməd peyğəmbərin dövründə insanlar həqiqi İslamda idi. İslam dünyanın yarısını zəbt etdi, elmi, mədəniyyəti bütün dünyaya yaydı. İslam ölkələrində dünyanın nəhəng şəxsiyyətləri formalaşdı və yetişdi. Elə ki, xurafat mərhələsinə qədəm qoyduq, məhv olub getdik.

***- Necə hesab edirsiniz, «Taliban»da baş verən prosesləri xurafatçı yanaşmalardan ayırmaq üçün nə edilməlidir?***

- "Taliban»a müəyyən şərtlərlə dəstək vermək lazımdır. Onun biri Əfqanısatanda koalision hökumət olmalıdır, türklər, taciklər, puştunlar orada təmsil olunmalıdır. İkincisi, ölkə Qurani-Kərimə uyğun, demokratik qaydada idarə olunmalıdır. Hansısa mollanın yazdığı qanunlarla yox. Eyni zamanda, Əfqanıstan dünyaya açıq olmalıdır. Əfqanıstan özündə elə addımlar atmalıdır ki, dünya ölkələri ondan üz döndərməsin.

***- Belə deyilir ki, Əfqanıstanda qurulan hökumət İran şiəsinin parodiyasıdır.***

- Ayrı-ayrı adamlar müxtəlif dini şüarlar deyə bilər. «Taliban»ın Əfqanıstanda necə bir hökumət quracağı barədə heç kəs heç bir söz deyə bilməz. Bu xəmir çox su aparacaq. «Taliban»ı hakimiyyətə xoşluqla buraxdılar. "Taliban» bundan sui-istifadə edəcəksə, əvvəlki dünyanı saymadan ağlasığmaz hərəkətlər edəcəksə, təzədən sıxışdırılacaq və təzədən vətəndaş müharibəsi ola bilər. Hələlik, Əfqanısatan hökumətinin legitimliyi elan olunmayıb. Əfqanıstanın Prezidenti hakimiyyətdən getdiyini elan eltməyib. Vaxtilə Elçibəy Kələkiyə getdi, bu da gedib oturub Birləşmiş Əmirlikdə, deyir ki, mən hələ prezidentəm. Əfqanıstan daxilində «Taliban»ın legitim dövlət yaratması çox çətindir.

Birinci, bu, tanınmalıdır, tanınandan sonra ölkə ilə iqtisadi əlaqələr qurulmalıdır. Bu mənada Əfqanıstanın Türkiyə və Pakistana ehtiyacı var. Bu baxımdan, Türkiyə və Pakistan təcili olaraq «Taliban»la birlikdə Əfqanıstanın gələcəyi ilə bağlı çox aydın mövqe ortalığa qoymalıdır. Əfqanıstanda yaşayan bütün millətlər dövlətdə, hakimiyyətdə təmsil olunmalıdır. Dil və milli ayrı-seçkiliyin bütün təzahürləri aradan qaldırılmalıdır. Heç kəs öz təriqətini, inancını başqa bir adama məcburən qəbul etdirə bilməz, o cümlədən də «Taliban».

***- Son dövrlərdə sosial şəbəkələrdə "Azərbaycanda da «Taliban»da olduğu kimi idarə quruluşu olmalıdır", - deyə çağırışların sayı artıb. Azərbaycanda - sosial şəbəkələrdə «Taliban»ın hərəkətlərini dəstəkləyən bəyanatların artması nə ilə bağlıdır, nə dərəcədə təhlükəlidir?***

- "Taliban» hələlik heç bir quruluş yaratmayıb, ölkə ərazisinə tam nəzarət edə bilmir. Əfqanıstanda hakimiyyət boşluğu yaranıb və «Taliban»ın heç bir rəsmi hakimiyyəti yoxdur. İndi "adamlar" «Taliban»a oxşamaq istəyirlər. Nədi, ölkədə xaos istəyirsən?! Azərbaycanda vətəndaş müharibəsi istəyirsiniz?! Azərbaycanın problemi ölkənin dünyəvi dövlət olması ilə bağlı deyil. Azərbaycanın problemləri dünyəvi dövlət kimi bəzi qanunlara əməl etməməyimizdədir. Əslinə baxsan, Azərbaycan xalqının dindarının da, ateistinin də istədiyi Avropa həyat tərzində yaşamaqdır. Azad, firavan, sosial təminatlı, öz istedad və qabiliyyətlərini inkişaf etdirmələri üçün imkanların olması və sair. Xalq bunu istəyir, dindarlar da bunu dini yolla həyata keçirməyi düşünür. Bunun bir modeli var: Avropa modeli. Bəzi məsələləri - cinsi azlıqlara hüquqların verilməsi və s. çıxmaq şərtilə Azərbaycanda Avropa modelini qurmağımız insanların xoşbəxtliyinə bəs edər.

***- Belə çağırışlar haradan gəlir?***

- Sosial şəbəkə bir küçədir. Orada hər cür dünyagörüşünə, əxlaqa, ağıla, hər cür əqidəyə sahib olan insan var. Sosial şəbəkədən nəticə çıxarmaq və orada gedən müzakirlərin özünü ciddiyə almaq özü yanlış məsələdir. Çoxları yalançı profillərdən çıxış edir. Mütləq bunun altında xarici kəşfiyyatın, ola bilsin, Rusiya, İran kəşfiyyatının əli var. Azərbaycanı dünyadan təcrid eləmək üçün onu ciddi bir döngəyə itələmək istəyirlər. İstəyirlər ki, dünya «Taliban»dan necə üz döndəribsə, Azərbaycandan da üz döndərsin. Ola bilər ki, erməni və ruslar azərbaycanlı adı altında təbliğat aparırlar. Kimsə burada «Taliban»dakı kimi rejimin olmasını istəyirsə, gəlsin televiziya kanallarında müzakirə aparaq. Həmin o adamı axtarsan, tapa bilməyəcəksən. Yalançı profillərdir. Onlar xüsusi kəşfiyyat orqanlarının agentləridir. Azərbaycan xalqı nə 1918-ci ildə dini dövlət yaradıb, nə də Ərəb xilafətinin tərkibində olanda bəzi qaragüruh fanatiklər kimi olmamışıq. Türklər din məsələsində heç vaxt fanatizmə yuvarlanmayıb. İslamdan əvvəlki illərə baxsan, görərsən ki, türkün dini elə İslama ən yaxın din olub. Ona görə xoşluqla qəbul ediblər. Azərbaycanda bəzilərinin dediyi kimi, İrana, «Taliban»a oxşar rejim qurula bilməz. Əvvəla, xalq bunu istəməlidir. Azərbaycan xalqı isə qərbtərzli həyat sürmək istəyir. Əsrin əvvəllərində də belə idi, indi də belədir.

500 il bundan əvvəl bizim birinci imperator Şah İsmayıl Roma papası, Avropa ilə danışıqlar apardı. Nadir Şah Avropa ilə danışıqlar aparmışdı, Qacar Napoleonla müqavilə bağlamışdı. Azərbaycan hökmdarlarının xarici siyasətinə baxsaq, onların hamısı Qərblə sıx əlaqələr qurub. Azərbaycan Qərbdən gələn yeniliyə açıqdır. Yenilikçi, mədəni istehlakçı olaraq, Azərbaycan kimi ikinci xalq yoxdur. Azərbaycan xalqının evində xalçalar, gözəl şəkillər, arxiv əşyaları saxlanılır. Bu, Azərbayacan xalqının nə qədər nəhəng, mədəni xalq olduğunu göstərir.

✍ ***Tahirə Qafarlı***

## Şərh



**Könül Nurullayeva,**
millət vəkili

***Rəsmi Bakı haqlı olaraq hesab edir ki, 44 günlük müharibəyə görə məsuliyyət yalnız işğalçı Ermənistanın deyil, onun işğalçılıq siyasətinə göz yuman beynəlxalq birliyin də üzərinə düşür. Bu mənada Prezident İlham Əliyevin BMT-nin yeni rezident əlaqələndiricisi ilə görüşdə bu məsələyə diqqət çəkməsi təsadüfi deyildi. Bu fikirləri hafta.az-a millət vəkili Könül Nurullayeva deyib.***

Onun sözlərinə görə, məsələ burasındadır ki, Azərbaycan 30 illik işğal dövründə dünyanın ən nüfuzlu təşkilatının Təhlükəsizlik Şurasının məlum qətnamələrinin icrası ilə bağlı məsələni ardıcıl şəkildə, ən yüksək səviyyədə, bütün mühüm platformalarda qaldırdı. Təəssüf ki, bu qətnamələr icra olunmadı:

# UNESCO-nun ədalətli mövqe sərgiləməsinə ehtiyac var

"Paralel olaraq, BMT TŞ-nin 5 daimi üzvündən 3-ü ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətsizliyi işğalın davam etməsinə səbəb oldu. Paradoks isə budur ki, vasitəçi ölkələr bu müddət ərzində daimi üzvü olduqları təşkilatın qəbul etdiyi qərarların icrasına maraq göstərmədilər. Halbuki dövlət başçımızın da söylədiyi kimi, məhz həmsədr ölkələr bu qətnamələrin icrasına nail olmaq üçün azımi mandata malikdirlər. Yəni, belə vəziyyətdə həmsədrlərdən yalnız təşəbbüskar və ədalətli olmaq tələb olunurdu.

Bu mənada rəsmi Bakı haqlı olaraq müharibəyə görə məsuliyyəti yalnız Ermənistanın yox, onu beynəlxalq hüquqa riayət etməyə məcbur edə bilməyən və ya bunu etmək istəməyənlərin üzərinə düşdüyünü bəyan edir.

> *İşğal dövründə Azərbaycana məxsus tarixi abidələrə dəymiş ziyanla tanış olmaq, onu düzgün dəyərləndirmək vacibdir*

Prosesləri təhlil etdikdə aydın olur ki, işğalçıya qarşı vaxtında sanksiyalar tətbiq edilsəydi, MQ həmsədrləri Ermənistanı öz işğalçı qüvvələrini geri çəkməyə məcbur etsəydi, müharibə baş verməzdi. Məsələ burasındadır ki, Azərbaycan bu illər ərzində işğala məruz qalan tərəf olsa da, məsələnin sülh yolu ilə həllinə calışıb. Danışıqlar masasında özünü adekvat aparmayan, sülh danışıqlarını pozan isə Ermənistan olub. Beynəlxalq təşkilatların işğalçının bu pozucu fəaliyyətini susqunluqla izləməsi isə vəziyyətin daha gərgin fazaya keçməsinə səbəb oldu.

Nəticə isə aydındır-Azərbaycan özü qətnamələri icra etdi. Prezident İlham Əliyevin də söylədiyi kimi, "Biz ədaləti, beynəlxalq hüququn normalarını bərpa etdik, BMT TŞ-nın qətnamələrini özümüz yerinə yetirdik".

Postmünaqişə dövründə də BMT başda olmaqla nüfuzlu təşkilatlardan məsuliyyətli olmaq tələb olunur. Xüsusilə UNESCO-nun Qarabağda dağıdılmış, təhqir olunmuş abidələrlə bağlı ədalətli mövqe sərgiləməsinə ehtiyac var.

Çünki işğal dövründə Azərbaycana məxsus tarixi abidələrə dəymiş ziyanla tanış olmaq, onu düzgün dəyərləndirmək vacibdir. Azərbaycan buna da razıdır. Çünki rəsmi Bakı gələcəyə baxmağın tərəfdarıdır. BMT rəsmisilə görüşdə dövlət başçımızın da qeyd etdiyi kimi, hazırda bizim əsas narahatlığımız dağıdılmış, tamamilə viran qoyulmuş ərazilərin bərpasıdır. Azərbaycan işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində BMT ilə əməkdaşlığa ümid edir. Bu ali təşkilat isə işğal dövründə olduğu kimi, postmünaqişə dövründə də laqeyd münasibətdən əl çəkməli, sülh prosesinə töhfə verməlidir".

✍ ***Azad***

# Sahibkarlıq fəaliyyətində canlanma başlayıb

***Hafta.az iqtisadçı-ekspert İrşad Kərimlinin müsahibəsini təqdim edir.***



**İrşad Kərimli**
iqtisadçı-ekspert

***- COVID-19pandemiyası Azərbaycan iqtisadiyyatına necə təsir etdi?***

- COVID-19 dünyanın qlobal problemlərindəndir. Bu qlobal problemlərin iqtisadi aspektləri var. Bunlar dünyanı bürüyən böhranlardır. Bu iqtisadi böhranın tərkibinə daxil olan problemlər ekologiya xarakteri daşıyır. Bu problemlər insan amili və təbiətdən səmərəli istifadə ilə bağlı olur. İnsan amili 1990-cı illərin əvvəlində BMT insan inkişafı haqqında böyük bir bəyannamə qəbul etdi. Bu bəyannamənin əsası insan əməyinin kapitala çevrilməsi ilə bağlı idi. İnsan əməyinin istifadəsinin elə yollarını tapmaq lazımdır ki, insan potensial etmək qabiliyyəti çoxaltmaq imkanına malik olsun. Belə imkanın əldə olunması üçün insanın sağlamlığı, yaş həddi və əməyinin mühafizəsi və s. hallara fikir verilir. Müasir dövdə 2019-cu ildə COVID-19 pandemiyası dünya miqyasını bürüdü. Bu zaman insan amilinin fəaliyyəti məhdudlaşdırıldı. İnsan əməyə olan qabiliyyəti iqtisadiyyatın hərəkətverici qüvvəsi əsasında dayanır. Buna mobil amil deyirlər. İnsan iqtisadiyyatın ictimai həyatın bütün sahələrində çevikliyini göstərmək imkanına malikdir. Texnikanı yaradan da insanın özüdür. Pandemiya insan amili ilə bilavasitə əhatə olunduğu üçün insan amilini məhdudlaşdırıb və məhdud dairəyə salması sözsüz ki, iqtisadiyyatın ləngiməsinə və çökməsinə gətirib çıxarır.

***- Pandemiya dövründə Azərbaycanda iqtisadiyyatın çevikliyi nədən ibarətdir?***

- COVID-19 başlanması ərəfəsində məhz Azərbaycan Hökuməti Ümumdünya Səhiyyə Təşkilatının təlimatlarına vaxtında fikir verməklə virusun qarşısının alınması üçün ilkin tədbirlərə geniş miqyasda start verdi. Bu tədbirlərin nəticəsində Azərbaycan ümumdünya səhiyyə təşkilatının ən nümunəvi ölkələrindən biri sayılır. Bizdə yoluxma sayı olduca az olması, yoluxanların tez müalicə olunması və əmək qabiliyyətinə qovuşma imkanlarının artırılması Azərbaycan hökumətinin çox diqqətli olduğunu göstərir. Bu baxımdan, Azərbaycan dövlətinin gördüyü işi çox yaxşı qiymətləndirirəm. Dünya təşkilatları da Azərbaycanı nümunəvi dövlət kimi qəbul edir.

Tədbirlərin vaxtında görülməsi və eyni zamanda, Qoşulmama hərəkatına üzv ölkələr inkişaf etməkdə olan ölkələrdir.

***- Azərbaycan dövləti koronavirus pandemiyası dönəmində sahibkarların az zərər görməsi üçün ciddi tədbirlər görüb. Bu tədbirləri necə dəyərləndirirsiniz?***

Sahibkarlıq fəaliyyəti insan əməyi ilə bağlıdır. Bizdə pandemiya dövründə kiçik və orta sahibkarlıq fəaliyyətinə çox xələl gəldi. Bunların fəaliyyətində müəyyən məhdudlaşmalar və ixtisarlar baş verdi. Dövlət konpensasiya etmək üçün sahikarlara minimum əməkhaqqı səlahiyyətini saxladı. Sahibkarların orta aylıq gəlirinin minimum miqdarda müavinətlər verməyi qarşısına qoydu. Dövlət büdcəsindən 3 milyard vəsait ayrıldı.

Bunlar kiçik və orta sahibkarlığı tənəzzülə uğramasının qarşısını aldı. Tədricən sahibkarlıq fəaliyyətində canlanma başlayıb. Bu canlanmanın səbəbi dövlətin bu fəaliyyətdə məhdudiyyətlər qoymaması və vəsait verilməsi canlanmaya gətirib çıxardı. Hazırda vergi ödəyiciləri əvvəlki səviyyəyə qayıtmağa başlayıb. Bu vəsaiti sahibkarlar tədricən geri qaytaracaq. Qarabağ bölgəsinin dircəldilməsi üçün 2,2 milyard birbaşa vəsait ayrılıb. Digər özəl şirkətlərdə Qarabağ Dircəliş fonduna müavinətlərin ayrılması üçün vəsait qoyub. Qarabağ bölgəsinin müasir dövrün tələblərinə uyğun səviyyəyə gətirilməsi üçün 120 milyard vəsait lazım olacaq.

***- Qarabağda kənd təsərrüfatı necə qurulmalıdır? Ağıllı kənd layihəsinin mahiyyəti nədir?***

- Qarabağ bölgəsində ağıllı kənd ağıllı şəhər layihələrinin həyata keçirilməsi üçün ilk növbədə kəndlilərə həm pay torpaqlarını, həm də yardımçı təsərrüfatları necə qurmaq lazım olduğunu yaxşı bilməliyik. Müasir dünyadakı kimi kənd təsərrüfatı yaratmalıyıq. Kənd təsərrüfatı ilə fermer təsərrüfatı bu mənada qarışdırılmamalıdır. Kəndli təsərrüfatını yalnız kəndli qura bilər.

✍ ***Sevinc***

# İldırım hadisələri niyə artıb?

## Layihə

***Xəbər verdiyimiz kimi, iki gun öncə Gəncədə müşahidə olunan qeyri-sabit hava şəraiti nəticəsində ildırım qaz xəttinə düşüb. Təbiət hadisəsi şəhərin Tağı Arani küçəsində qeydə alınıb. Qaz xəttinə bitişik ağac yanıb, qaz xəttinə ziyan dəyib, 1500 abonent qazsız qalıb.Tovuz rayonunun ərazisinə də ildırım düşüb və hadisə yanğına səbəb olub. Ötən gün isə Gəncədə güclü şimşək, Sabirabadda güclü ildırım, Şəki, Tərtər, Mingəçevir, Ağdam, İmişli, Cəfərxan, Bərdə, Oğuz, Naftalan, Zaqatala, Balakən, Xınalıq, Altıağac, Qusaryasaq, Xaçmaz, Quba, Naxçıvan, Daşkəsən, Gədəbəy, Şəmkir, Tovuz, Qəbələ, Qobustan, Xaltan, Qrız, Yevlax, Göyçay, Zərdab, Kürdəmir, Hacıqabul, Kişçay (Şəki), Xınalıq, Şabran, Nabranda şimşək və göy gurultusu qeydə alınıb. Nəticədə bəzi bölgələrdə elektrik təsərrüfatına ziyan dəyib.***



**Əvvəllər daha çox dağlıq ərazilərdə qeydə alınan bu hadisə indi aran rayonlarında da tez-tez baş verir**

Baş verənlər göstərir ki, son illər bu il ölkəmizdə ildırım və şimşək çaxması halları artıb və Azərbaycanda ildırımvurma hallarının ən azı əvvəlki illərlə müqayisədə çox olduğunu görməmək də mümkün deyil. Bəs, görəsən, ölkəmizdə ildırım və şimşək çaxması hallarının artmasına səbəb nədir? Bunu sadəcə təbiət hadisəsi kimi əlaqələndirmək olarmı?

■ **Mövzunu hafta.az-a şərh edən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Coğrafiya İnstitutunun əməkdaşı Həsən Nəbiyev deyib ki, ildırım adətən buludların elektrikləşməsi zamanı mümkün olur:** "Topa yağış buludlarında bu proses çox intensivdir. Burada sahənin gərginliyi, potensial həddən artıq böyükdür. İldırımın uzunluğu bəzən bir neçə kilometrə çatır. İldırım adətən bir neçə kanaldan ibarət olur.

Kanallar əyri və şaxələnmiş olurlar. İldırım kanallarını ona görə görmək mümkündür ki, orda həddən artıq qızmış hava çəhrayı-bənövşəyi rəngə qədər işıqlı olur. Bu kanallarda istilik adətən 25-30 min dərəcəyə çatır. İldırım saniyənin onda biri müddətində davam edir. İldırımın birinci boşalması "lider boşalma" adlanır. Bu boşalma növbəti güclü boşalmalar üçün ildırım kanalı yaradır. Həmin kanalda ən güclü ildırım baş verir. Sonrakı ildırımlar isə nisbətən zəif qeydə alınır".

H.Nəbiyev bildirib ki, Azərbaycanda ildırım halları daha çox dağlıq ərazilərdə baş versə də, bu gün vəziyyət tamamilə dəyişib: "Əvvəl ildırım daha çox Şəki-Zaqatala, Gəncə-Qazax, Yuxarı Qarabağ, Quba-Xaçmazın dağlıq hissələrində baş verirdi. Düzənlikdə, Aran rayonlarda, Abşeronda bu hadisə çox nadir hallarda olurdu. Amma son zamanlar Abşeronda və Aran zonasında da belə hadisələr get-gedə artmaqdadır. Təbii ki, bunun da əsas səbəbi baş verən iqlim dəyişmələridir. Hazırda hava kütlələrinin istiqamətində, intensivliyində də müəyyən dəyişmələr var. Bu dəyişmələr göstərir ki, dağlarda , Böyük Qafqazda müşahidə olunan hadisələr şərqə doğru köçürülür. Həmin iqlim dəyişmələri atmosfer dövranına, onun intensivliyinə təsir göstərir. Bakıda olmayan bir hadisə indi Bakıda tez-tez qeydə alınır və ildırım göy guruldaması, şimşəklərlə müşahidə olunur. İldırım vuran insanların sayı artır. Hazırda bu istiqamətdə tədqiqat işləri aparılır və bunun hansı səbəbdən çoxalmasının səbəbləri araşdırılır. Belə hadisələri proqnoz etmək çox çətindir. Hazırda bu hadisələrin yaranma şəraiti öyrənilir. Yəni, əsas fikir budur ki, atmosferdə müəyyən dəyişikliklər əmələ gəlib. Bu da ümumi vəziyyətə təsir göstərir. Amma bizim bu istiqamətdə tədqiqatlarımız hələ ki, davam etməkdədir. Digər tərəfdən, Bakıda tikilən hündür tikililər də hava kütlələrinin dinamikasına təsir edir. Bu tikililər hava kütlələrinin altında şaquli hərəkətləri gücləndirir. Bu da paytaxtda yağıntıların artmasına gətirib çıxarır. Bakıda yağıntıların, dumanlı hava hallarının sayı artır. Bu da yeni tikilən binalarla bağlıdır. Rütubətli hava həmin binaların səthi ilə təmasda olanda konvensasiya prosesi baş verir, binanın ətrafı həmişə dumanla örtülü olur. Bu istiqamətdə hələ tədqiqat aparılır".

> *"SSRİ dağılandan sonra ABŞ bioloji silahları hər yerə yerləşdiriblər*

H.Nəbiyev onu da vurğulayıb ki, şimşək çaxanda insanlar maksimum ehtiyatlı olmalıdırlar: "Adətən, ildırım daha çox yüksək obyektləri vurur. Məsələn, dağlıq əraziləri. Şimşək çaxanda düzənlikdə olan ağacın altında da daldalanmaq olmaz. Çünki orda ən hündür obyekt ağacdır və ildırım birinci onu vuracaq. Ağacı da vursa, yəqin ki adamı da vuracaq. Güclü ildırım zamanı yaş paltarda açıq havada durmaq olmaz. Çantada olan metal əşyanı götürmək lazımdır. Mümkündürsə, telefon söndürülməlidir. Antenası olan bütün cihazların hamısı onu tutur. Bəzən maşında olanda adamlar özlərini daha təhlükəsiz hesab edir. Amma avtomobildə quraşdırılan registratorlar ildırımı darta bilirlər. İldırım çaxanda həmçinin evdə radioqəbuledicilər və telefon da söndürülməlidir ki, bu cihazlar ildırımı özünə dartmasın".



**Telman Zeynalov,**
Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin prezidenti

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fizika İnstitutunun aparıcı elmi işçisi Kamil Qurbanov vurğulayan K. Qurbanov deyib ki, ildırım, şimşək çaxması təbii bir prosesdir:** "Bu atmosfer hadisəsidir. Son vaxtlar bunun dağ və rayon yerlərində müşahidə olunması buludlu havaların olması ilə əlaqədardır. İldırım buludla yer arasında, buludla bulud arasında yüksək gərginlikli qaz boşalmasıdır, kiloamperlərlə cərayan axır. Buludlu havada bu proses sürətləndiyində biz ildırımı daha tez-tez müşahidə edirik. Şimşək, ildırım eyni şeydir.Şimşək də ildırımın şaxələridir. Harada bulud varsa, bulud hansı istiqamətdə hərəkət edirsə, ildırım da həmin istiqamətdə gözlənilir. Buludlar bir-birinə yaxınlaşanda, məsafə azalanda bir buluddan o biri buluda qövs şəkilində ildırım boşalması baş verir. Bunun modelini işləyib düzəltmək laboratoriyada da mümkündür. Elə işləyirik də. Amma əvvəllər bunun nə olduğunu bilmirdilər. Bu təbiət hadisəsidir. Qorxulu heç nə yoxdur. Bu hadisələr ölkəmizdə həmişə olub. Əvvəl bizdə hətta Şuşa şəhərində mərkəz var idi, ildırımın cərayan şiddətini ölçürdülər. Sonra onu Şamaxıya köçürdülər. Yəni, bunu iqlim dəyişmələrinə bağlamaq olmaz, həmişə olan hadisələrdir, bundan sonra da olacaq".

K.Qurbanov öz açıqlamasında ildırımvurma hallarında insanların necə davranmalı olduqlarına da toxunub: "Əsasən yüksək binalar, hündür şam ağacları olan yerlərdə ildırımdan mühafizə tədbirləri keçirilir. Çünki ildırımın elə yerlərə düşməsinə daha çox təsadüf edilir. İldırım düşərkən insanlar şaquli vəziyyətdə hərəkət edirlərsə, bu da müəyyən bir yüksəklik sayılır. Əgər insan dzənlikdədirsə, hansısa bir tarlada iş görürsə və yaxud çobanlıq edirsə, örtülü yer tapmadığı halda heç olmasa yerə uzanmalıdır ki, o hündürlüyü azaltsın. Əgər evdə ildırımdan mühafizə qurğusu yoxdursa, onda ildırımın televizor, soyuducu kimi həssas elektrik cihazlarına təsiri ola bilər. Yaxşı olar ki, bu cihazlar şəbəkədən ayrılsın".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Ekologiya və ətraf mühitin mühafizəsi

### Ekspert rəyi...

■ **Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin prezidenti Telman Zeynalov isə mövzu ilə bağlı danışarkən hafta.az-a bildirib ki, bu gün təbii proseslərə ciddi şəkildə müdaxilə edilir: "İri dövlətlər meteroloji, geofiziki silahlardan istifadə edirlər. Buna görə də son illər ildırım, şimşək çaxması hallarının artması heç də təbii proses sayıla bilməz. Bu gün dünyada çirkin oyunlar gedir. Məhz bioloji silahlar nəticəsində təsadüf etmədiyimiz hadisələrlə rastlaşırıq.**

Amerikanın dünyanın hər yerində bioloji silahı var. Elə qonşu Gürcüstanda, Ermənistanda da həmin silahlardan yerləşdiriblər. Yəni, SSRİ dağılandan sonra ABŞ bioloji silahları hər yerə yerləşdiriblər". Ekspert həmçinin vurğulayıb ki, ildırım halları çoxaldığından vətəndaşlar bu kimi vəziyyətdə hansı addım atılmalı olduğunu bilməlidirlər: "Bu zaman ağacların yanında və boş ərazilərdə dayanmaq qəti olmaz. Çünki ildırım çaxan zaman hətta iri ağacları da vurub aşıra bilir. Çox zaman məlumatsızlıq ucbatından xeyli itkilər olur. Ona görə də yaxşı olardı ki, bu barədə maarifləndirmə işləri aparılsın və insanlar məlumatlandırılsın. Xüsusən kənd yerlərində yaşayanlara və məktəblilərə bu haqda məlumat verilməlidir.

Çox vaxt yağışlı havada ildırım çaxan zaman insanlar mal-qara otarırlar. Bu həm insanlar, həm də heyvanlar üçün təhlükəlidir. Bu gün bir çox dünya alimləri qlobal istiləşmənin olduğunu desələr də, iyun ayında bu kimi hallara rast gəlinir. Əgər yay ayında üç güclü ildırım faktı qeydə alınıbsa, deməli iqlimdə dəyişikliklər gedir. Artıq ekoloji problemlər iqlimə təsir edir. Bunun nəticəsində yağıntıların miqdarı və ildırım kimi təbiət hadisələri getdikcə artır. Əvvəllər bir ildə iki-üç yüz qasırğa, tufan və təbii fəlakət baş verirdisə, indi bu rəqəm üç-dörd minə qalxıb".

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan və Türkiyə arasında imzalanmış rəqəmsal ticarət haqqında Anlaşma Memorandumunu təsdiqləyib. Bu barədə Türkiyənin "Resmi Gazete"sində məlumat verilib. Qeyd edək ki, Azərbaycanla Türkiyə arasında rəqəmsal ticarət haqqında Anlaşma Memorandumu aprelin 2-də Bakıda imzalanıb.

---

2021-ci ilin avqustun 1-nə Azərbaycanda fiziki şəxslərin banklardakı əmanətlərinin həcmi 8,606 mlrd. manat təşkil edib. Bu, ilin əvvəli ilə müqayisədə 5,2%, ötən ilin eyni dövrü ilə müqayisədə isə 10,7% artıb. Əmanətlərin 44,7%-i xarici valyutadadır, bu da aylıq müqayisədə 1% bəndi, ötən ilin eyni vaxtı ilə müqayisədə isə 7,9% bəndi azdır.

---

Fransanın PSJ klubunun rəhbərliyi Killian Mbappenin başqa kluba keçməyinə razılıq verib. Liqa1 təmsilçisi yalnız tələb etdiyi məbləğ qarşılığında hücumçusunun keçidinə razı olacaq. Paris klubu 22 yaşlı forvarda 200 milyon avro qiymət qoyub. Mbappenin müqaviləsi gələn ilin yayında başa çatacaq. Qeyd edək ki, bir müddət öncə PSJ "Real"ın Killianı almaq istəyini rədd edib.

---



Çexoslovakiya hokkeyinin əfsanəsi Yan Suxi vəfat edib. Sabiq müdafiəçi 76 yaşında dünyasını dəyişib. O, çempionatda 162, millidə 44 qol vurub. 1968/69 mövsümünün ən yaxşı bombardiri olan Suxi Çexoslovakiya çempionatları tarixində belə uğura imza atan yeganə müdafiəçidir. O, həmin vaxt 56 xal toplayıb. Suxi Yiqlava "Dukla"sı ilə 7 dəfə Çexoslovakiya çempionu olub. O, yığmada Olimpiya və 7 dünya çempionatının mükafatçısıdır.

---

Amerika Neft İnstitutunun (API) proqnozlarına görə, ABŞ-da kommersiya neft ehtiyatları azalıb. Ötən həftə ABŞ-ın neft ehtiyatları 1 622 min barel azalaraq təqribən 433 921 min barel təşkil edib. Qeyd edək ki, analitiklər ABŞ neft ehtiyatlarının 2 367 min barel azalacağını gözləyirdi. Xatırladaq ki, ABŞ-ın neft ehtiyatları haqqında məlumatlar dünya bazarında olan "qara qızıl"ın qiymətinə əhəmiyyətli dərəcədə təsir edir.

---



Peyvəndləmə ilə bağlı Nərimanov və Xətai rayon əraziləri üzrə şəhər poliklinikalarında yaranan sıxlığı aradan qaldırmaq məqsədilə əlavə vaksinasiya məntəqələrinin fəaliyyətinə zərurət yaranıb. Səhiyyə Nazirliyindən hafta.az-a verilən məlumata görə, bu məqsədlə Xətai rayonunun 8 nömrəli Uşaq Poliklinikası (ünvan: Əliağa Şıxlinski küç, 59) və Nərimanov rayonunun 7 nömrəli Uşaq Poliklinikası (ünvan: Faiq Yusifov küç, 37) vaksinasiya prosesinə cəlb edilib.

---

Meksikanın cənub-şərqində 5,4 bal gücündə zəlzələ olub. Bu barədə xarici KİV-lər Seysmologiya Xidmətinə istinadən xəbər yayıblar. Zəlzələ Çiapas vilayətinin Hidalqo şəhərindən 175 kilometr məsafədə, yerin 10 kilometr dərinliyində qeydə alınıb. Yeraltı təkanlar nəticəsində dağıntı və tələfat yoxdur.

# Bu evlərin qiyməti bahalaşacaq

## Proqnoz

***Bir neçə gün öncə kütləvi informasiya vasitələrində Abşeron rayonu ərazisindəki, təxminən, 340 min sənədsiz evə çıxarış ("kupça") veriləcəyi barədə məlumatlar yayılmışdı. Həmçinin deyilirdi ki, növbəti mərhələdə Bakıətrafı kənd və qəsəbələrdə sənədsiz evlər sənədləşəcək. Bəs görəsən, uzun illərdir həllini gözləyən sənədsiz ev məsələsinin yoluna qoyulması daşınmaz əmlak bazarına nə kimi təsirlər göstərəcək?***



**Ramil Qasımzadə,**
əmlak eksperti

■ **Məsələ ilə bağlı hafta.az-a danışan əmlak eksperti Ramil Qasımzadə bildirdi ki, qeydiyyatsız evlərə çıxarışların verilməsi əmlak bazarına müsbət təsir göstərəcək:** "Qeydiyyatsız evlərin qeydiyyatı ilə bağlı İcra hakimiyyətləri və bələdiyyələr işçi qrupları şəklində planölçmə işləri aparıblar. Bütün bu proseslər pandemiyadan öncə yekunlaşsa da, müzakirələr hələ də davam edirdi. Orada elə fərdi yaşayış evləri var ki, təhlükəli ərazilərdə - yüksəkgərginlikli elektrik xətlərinin, qaz kəmərlərinin, su borularının, neft buruqlarının, dəmiryol xətlərinin yaxınlığında yerləşir. Ona görə də həmin evlərin sənədləşdirilə bilməsi müzakirə edilirdi. Bu müzakirələr yekunlaşmaq üzrə idi. Hesab edirəm, sənədləşdirmə işləri daşınmaz əmlak bazarına bir neçə istiqamətdən çox müsbət təsirlər göstərəcək. Ev alqı satqısı artacaq və bu zaman da büdcəyə daxilolmalar çoxala bilər. İndiyə qədər sənədsiz evlərin alqı-satqısı zamanı həm alıcı həm də satıcılar əziyyət çəkirdilər. Müştərilər təbii olaraq kupçası və hər hansı sənədi olmayan evlərə pul vermək istəmirdilər. Digər tərəfdən, notariat xidmətlərinin işinə, sığorta bazarına yaxşı təsir bağışayacaq. Fərdi yaşayış evlərinin sığortalanması daşınmaz əmlak çıxarışının olmaması səbəbindən sığortalana bilmirdi. Ən əsası isə evlərin sənədləşdirilməsi əmlak vergisinin toplanması ilə büdcəyə demək olar ki hər il milyonlarla manat dəyərində xeyir verəcək".



> *"Bütün bu proseslər pandemiyadan öncə yekunlaşsa da, müzakirələr hələ də davam edirdi*

Qeyd edək ki, illərdir Azərbaycanda sənədsiz torpaq sahələrinin və evlərin dövlət reyestrinə daxil edilməsi problemi gündəmdən düşmür. Prezident İlham Əliyev məsələ ilə bağlı aidiyyəti qurumlara dəfələrlə göstəriş versə də, hələlik konkret nəticə hasil olmayıb. Hələ bir neçə il əvvəl Bakı Şəhər İcra Hakimiyyəti paytaxt və paytaxtətrafı ərazilərdə tikilmiş sənədləşdirilməsi mümkün hesab edilən sənədsiz evlərin sayının 700 mindən artıq olduğunu açıqlayıb.

***✍ Banu***

# Əfqanıstan ordusunun 200 mini "ölü can"lardır

## Aktual

***"Xarici firmalar da Əfqanıstanda taliblərin nəzarəti altındakı ərazilərdə tikinti, təsərrüfat və s. işləri quranda mütləq taliblərə 30-40 faiz "haqq" ödəməli idilər...". Hərbi ekspert, ehtiyatda olan kapitan Tərlan Eyvazovla Hafta.az üçün növbəti söhbətimizdə Əfqanıstandakı son olay və proseslərdən danışdıq. Öyrəndik ki, Tərlan bəy 2 ilə yaxın müddətdə keçmiş SSRİ-nin Əfqanıstandakı hərbi-siyasi əməliyyatlarında iştirak edib. Eyni zamanda həmin dövrdə, eləcə də son onilliklərdə bu ölkənin tarixi, orada baş verən ictimai-siyasi proseslərlə yetərincə maraqlanıb...***

***- Tərlan bəy, bildiyimizə görə, siz sovet-Əfqanıstan müharibəsinin iştirakçısı olmusunuz. Bu baxımdan, yəqin ki, həmin ölkə xalqının etnopsixoloji xarakterinə də az-çox bələdsiniz. Odur ki, həm də bir hərbi ekspert kimi sizin bu müsəlman ölkəsində son günlər baş verənlər barədə fikirlərinizi bilmək oxucularımız üçün də maraqlı olardı...***

- Bəli, 1979-1981-ci illərdə Əfqanıstanın Şindant əyalətindəki aerodrom ərazisində yerləşən sovet hərbi birləşməsində xidmət etmişəm. Həmin əyalət həm Herat, həm də Fərah əyalətləri ilə həmsərhəd idi. Digər iki əyalətdə də hərbi əməliyyatlarda iştirak etmişik. Orada digər xalqlarla yanaşı, "Taliban"ın əsas özəyini təşkil edən puştunlar da yaşayırdı.

Özü də Əfqanıstanda xidmət keçmiş rəhmətlik Zakir Sadatlının "Əfqanıstan uçurumu" adlı xatirə-romaında yazdığı kimi, orada xidmət edənlər, sanki Əfqanıstana bağlanıblar... Odur ki, mən də Əfqanıstandan qayıtdıqdan sonra da o ölkənin, o xalqın tarixi ilə daim maraqlanmışam. 1990-cı illərdə sonradan Prezident yanında Dövlət İdarəçilik Akademiyası olmuş o vaxtkı Politologiya İnstitutunda təhsil alarkən də Əfqanıstan haqda biliklərimi dərinləşdirmişəm...

***- Sizcə, Əfqanıstan tarixində əsasən hansı aspektlərə diqqət etmək gərəkdir?***

- Öncə bilmək lazımdır ki, Əfqanıstan xalqının xeyli hissəsini təşkil edən puştunlar tarixən üsyankar millət olub və bu günədək əşirətlər formasında yaşayır və göründüyü kimi, yadelli işğalçılara qarşı silahı yerə qoymurlar. Hər bir əşirətin özünün başçısı, silahlı qüvvələrii, təsərrüfatı və s. olur. Onlar əsasən Pakistanla həmsərhdə olan Qəndəhar ərazisində köçəri həyat sürürlər. Şimal tərəfdə, "Türküstan" deyilən ərazidə isə əsasən özbəklər, türkmənlər, xəzarilər və taciklər yaşayır. Ölkədə əsasən iki dil hakimdir: puştun və fars. Fars dilinin dəri şivəsi nisbətən asan qavranıldığı üçün Əfqanıstandakı bütün xalqlar, o cümlədən puştunlar, taciklər, özbəklər də həmin dildən ümumi ünsiyyət vasitəsi kimi yararlanırlar...

XX əsrdəki əfqan dövlətçiliyi məhz bəhs etdiyimiz puştunların ingilis müstəmləkəçilərə qarşı qaldırdığı üsyanlar sayəsində formalaşıb. XIX əsrin sonlarında Əfqanıstan həmin dövrdə hökmranlıq etmiş Britaniya Hindistanı və Rusiya İmperiyası arasındakı "Böyük oyun"da bufer ölkə rolunu oynayıb. 1919-cu ildə baş vermiş Üçüncü ingilis-əfqan müharibəsinin ardınca ölkə xarici təsirdən azad oldu və Əmənullah xanın rəhbərliyi altında monarxiya quruldu. Əfqanıstanı müstəqil dövlət kimi birinci Sovet Rusiyası tanıdı. 1921-ci ildə Britaniya da bu ölkənin müstəqilliyini tanımalı oldu... Əfqanıstanın qızıl dövrü 1935-1973-cü illərdə hakimiyyətdə olmuş Məhəmməd Zahir şahın dövrü sayılır. Həmin dövrdə ölkədə yollar çəkilib, aeroportlar tikilib, qaz yataqları tapılıb, istismar olunub və s. və i.a. 1973-cü ildə o vaxt baş nazir olan Məhəmməd Davud Zahir şahın xaricdə müalicədə olmasından yararlanaraq onu devirib. 5 il, yəni 1978-ci ilədək hakimiyyətdə qalan Davud həm Qərblə, həm də SSRİ ilə yaxınlıq etməklə Əfqanıstanda kapitalist görüşlü bir ölkə qurmağa çalışdı. Ancaq 1978-ci ildə SSRİ-nin dəstəyi ilə Saur(yaxud Aprel) inqilabı adlanan hərbi çevriliş həyata keçirildi. 1970-ci illərin sonunda Əfqanıstanda bir neçə dəfə dövlət çevrilişi baş verdi. Və nəticədə ölkənin bütün hərbi sistemi Sovetlər tərəfindən qurulmağa, idarə olunmağa, eləcə də ölkədə kommunizm ideologiyası təbliğ olunmağa başlandı. Beləliklə, əvvəlcə ölkədə sosialist meyilli dövlət quruldu, ardınca isə Əfqanıstan Sovet İttifaqının protektoratına çevrildi. Təbii ki, ölkə əhalisinin böyük əksəriyyəti müsəlmanlıqdan kənar hansısa bir ideologiyanın qəbul olunmasına qarşı çıxdı. Bu da radikal təşkilatların yaranmasına və Əfqanıstandakı sovet meyilli hökumətə qarşı silahlı üsyanlara səbəb oldu. O halda hökumət SSRİ-dən dəstək istədi. Beləliklə, 1979-cu il dekabrın sonunda Sovet İttifaqı Əfqanıstana qoşun yeritdi... 9 ildən çox orada olduqdan sonra Qorbaçov anladı ki, Əfqanıstanda qoşun saxlamağın mənası yoxdur. 1989-cu ilin fevralında sovet ordusu bu ölkədən çıxarıldı. Amma bu gün ABŞ-ın qoyduğu prezident Əşrəf Qəninin taliblərin gəlişindən sonra bir gün də qala bilməməsinə rəğmən Kabildə kommunist lider Nəcibulla hakimiyyətdə qaldı. Və SSRİ-nin orada qurmuş olduğu struktur, o cümlədən ordu Nəcibullanın rəhbərliyi ilə təxminən, 3 il ərzində hakimiyyətdə duruş gətirə bildi. Bu hakimiyyətə qarşı həm İranda, həm Pakistanda və bəzi ərəb ölkələrindəki radikal dini qurumlardan ibarət güclü koalisiya formalaşırdı. Nəticədə 1992-ci ildə Kabildə hakimiyyət devrildi. Bundan sonra da Əfqanıstanda əmin-amanlıq bərqərar olmadı. Hakimiyyətə gələn prezident Bürhanəddin Rəbbani, Baş nazir Gülbəddin Hikmətyar, müdafiə naziri, tacik əsilli Əhməd Şah Məsudun və s. hər birinin silahlı qüvvələri olmaqla öz ambisiyaları vardı. Buna görə də Əfqanıstanda daim qarşıdurmalar yaşanırdı. Ölkənin ziyalıları, iş adamları və s. anladılar ki, "şurəvi" dedikləri sovetlərin qovulmasına baxmayaraq indi də ölkədə qardaş qırğını gedir. Ona görə də əsasən Pakistanın dəstəyi ilə "Taliban" hərəkatı yaradılmağa başlandı. "Taliban" "tələbələr" deməkdir. Ölkədəki mədrəsələrdə təxminən 200 minə yaxın tələbəyə aşılandı ki, Əfqanıstanın birliyi, rifahı və gələcəyi üçün mütləq İslam qanunlarına uyğun şəriət dövləti qurulmalıdır.



**Tərlan Eyvazov,**
hərbi ekspert, ehtiyatda
olan kapitan

Ona görə də 1994-cü ildən Molla Məhəmməd Ömərin başçılığıyla "Taliban" hərəkatı mübarizəyə başladı. 1996-cı ildən etibarən Əfqanıstan ərazisinin çox hissəsi "Taliban" qruplaşması tərəfindən ələ keçirildi ki, nəticədə ölkənin çox hissəsi beş ilə yaxın müddət ərzində Əfqanıstan İslam Əmirliyi adlı rejim tərəfindən idarə olundu. Təbii ki, o dövrdə "Taliban" həddən artıq radikal hərəkətlər edir, edamlar və s. filan təşkil edirdilər. Taliblərin hakimiyyətdə olduğu 5 il ərzində müsbət işlərdən biri o oldu ki, dünyanın 80 faizini heroinlə təmin edən Əfqanıstanda narkotik ticarəti, demək olar ki, tamamilə dayandırıldı. O dövrü bəlkə də "hərbi islami kommunizm" adlandırmaq olar. Sosial ədalət və bərabərliyə səy göstərildi, ədalət məhkəmələri quruldu, haram içkilər, musiqilər qadağan olundu, islami qayda-qanunlar bərqərar edildi. Və ən əsası, bir murdar cahillik adəti olan uşaqbazlıq kultu ləğv olundu. O vaxta qədər hər bir imkanlı əfqan evində arvadlarından savayı özü üçün bir oğlan uşağı da saxlayır və onunla da şəhvət hisslərini təmin edirdi...

***- Əgər "Taliban" xalqa xidmət edirdisə, nəyə görə cəmi 5 il hakimiyyətdə qaldı?***

- Hər şey 11 Sentyabr olaylarından sonra - 2001-ci ilin payızında ABŞ və NATO-nun rəhbərliyi altında koalisiya qoşunlarının "beynəlxalq terrorçuluğa qarşı mübarizə" adı ilə Əfqanıstana soxulması ilə başlandı. Az qala, bütün dünyanın həm hərbi, həm də siyasi təzyiqləri altında "Taliban" qruplaşmasının üzvləri hakimiyyətdən getməli oldu və "demokratik" hesab olunan yeni hökumət quruldu. Həmin dövrdən dünyanın, o cümlədən Azərbaycanın əksər politoloqları bəyan etdilər ki, artıq "Taliban" bitdi və bundan sonra onun dirçəlmək imkanı yoxdur. Mən əvvəldən deyirdim ki, taliblərin amerikanlara boyun əyməsi qeyri-mümkün olan şeydir. Bununla belə, ABŞ və Avropanın nəhəng qoşunları və müasir texnikaları qarşısında "Taliban" şəhərlərdən kəndlərə çəkilməyə məcbur oldu. Əslində o dövrdən etibarən taliblər hakimiyyətdən tam şəkildə getmədi. Yəni hakimiyyət təxminən yarıbayarı şəhərlərdə Amerikanın qurduğu Əfqanıstan hökumətinin, kəndlərdə isə "Taliban"ın əlində idi... Yenə də ölkədə xaos başladı, narkotik ticarəti baş qaldırdı, ABŞ hökumət vasitəsilə hər şeyi nəzarətə almağa çalışdı. Bütün bunlara rəğmən "Taliban" mübarizəni davam etdirdi. Bir neçə ildən sonra Ağ ev də Moskva kimi anladı ki, Əfqanıstanda bataqlığa düşüb. Buna görə də "Taliban"la danışıqlara başladı ki, heç olmasa oradan çıxanda simasını qorusun. Yəni taliblər də təmsil olunmaqla koalision hökumət qurulsun. "Taliban" buna razı olmadı və hakimiyyəti bütövlükdə ələ keçirəcəklərini bəyan etdi. Rusiya da bu vəziyyətdən yararlanaraq vaxtilə ABŞ-ın Sovetlərə qarşı mücahidləri silahla təmin etdiyi kimi, "Taliban"ı ABŞ-a qarşı silahlandırmağa başladı. Eləcə də Çin, Pakistan və bəzi ərəb ölkələri bu yolu tutdu...

> *"Taliblərin amerikanlara boyun əyməsi qeyri-mümkündür...*
>
> ---
>
> *Talibanın dövründə Əfqanıstanda narkotik ticarəti dayandırılmışdı...*

***- Bəs "Taliban" həmin silahları almaq və 70 minlik ordusunu saxlamaq üçün maliyyə vəsaitini haradan alırdı?***

- Onlar həmin vəsaiti hakimiyyətdə olduqları kənd əyalətlərindəki insanlardan İslam şəriətinə uyğun olaraq vergi və zəkat yığmaqla, eləcə də o ərazilərdən biznes quranlardan "hesab" almaqla əldə edirdilər. Biznesmenlər arasında əsasən yol tikintisi ilə məşğul olan iş adamlarından pul alınırdı. Onlar müxtəlif dəstələrin hücumlarından, soyğunlarından sığortalanmaq üçün "Taliban"a pul buraxmağa məcbur olurdular. Xarici firmalar da Əfqanıstanda taliblərin nəzarəti altındakı ərazilərdə tikinti, təsərrüfat və s. işləri quranda mütləq 30-40 faiz taliblərə "haqq" ödəməli idilər...

***- Talibər Kabili tutmamışdan öncə nəyə görə Tacikistan, Özbəkistan sərhədləri istiqamətində hücumlara başladılar?***

- Bilirsiniz, "Taliban" ölkənin şimalındakı qeyri-puştun özbək, tacik və digər xalqların nümayəndələrindən gözlənilən mümkün təhlükələri neytrallaşdırmaq məqsədilə keçmiş sovet ölkələri ilə sərhədləri tutmalıydı. Nəticədə taliblər Özbəkistan, Tacikistan və Türkmənistanla sərhəddə möhkəmləndilər. Və əvvəlki dövrdən fərqli olaraq bu dəfə "Taliban" şimaldakı xalqların nümayəndələrindən də öz sıralarına qatdı...

***- Bəs necə oldu ki, özbəklər, taciklər və s. daim aralarında ziddiyyət olan puştunların hökmran olduğu "Taliban" hərəkatına qoşuldular?***

- Milliyyətindən asılı olmayaraq artıq Əfqanıstanın əksər sakinləri rüşvətxor, korrupsioner hökumətdən bezmişdilər. Savadsız adamlar da dərk edirdi ki, Qərbin, Amerikanın ayırdığı 10 milyardlar puldan adi vətəndaşlara heç bir fayda yoxdur. Digər tərəfdən, son bir neçə ildə Əfqanıstanın xüsusən cənub bölgələrində havalar həddindən artıq quraq keçdiyindən insanların vəziyyəti daha da ağırlaşmışdı və hökumət də bunun müqabilində heç bir tədbir görmürdü. Buna görə də Kabildəki amerikameyilli Əşrəf Qəni iqtidarından narazılıq daha da artırdı... Bütün bunlar ona gətirib çıxardı ki, artıq hökumət ordusunda da etirazlar yetişdi. Buna görə də "Taliban" hücuma keçəndə bütöv briqadalar silahlarını təhvil verib çıxırdılar və taliblər də onlara toxunmurdu...

***- Bəs ümumiyyətlə, necə oldu ki, Əfqanıstan hökumətinin 300 minlik ordusu iki həftədən də az bir müddətdə cəmi 70 minlik "Taliban" ordusu qarşısında çökdü?***

- Ağ ev elə düşünürdü ki, Əfqanıstanda yaratdığı 300 minlik ordu orada, demək olar ki, özünün formalaşdırdığı hakimiyyəti qoruyacaq, amma belə olmadı. Bəs niyə? Hansı səbəblərdən? Çoxları belə hesab edir ki, bu boyda nizami ordunun özündən azı 4 dəfə kiçik talib ordusu qarşısında çökməsi əfqan ordusunun zəifliyi ilə, yaxud razılaşdırılmış siyasi gedişlə bağlı olub. Əfqanıstana bələd olanlar bilir ki, əsl gerçəklik başqa cürdür...

Əvvəla, əksər Şərq ölkələrində olduğu kimi, Əfqanıstan hakimiyyəti tərəfindən həddən ziyadə böyük siyasi səhvlərə yol verildi. Eks-prezident Həmid Kərzayi də, indi qaçqın olan prezident Əşrəf Qəni də seçkilərdə hazırda keçid hakimiyyətində təmsil olunan Abdullah Abdullaha uduzmuşdular. Kərzayi də, Qəni də ABŞ-ın "adamları" olduqlarına görə Abdullaha namizədliyini geri götürmək üçün təzyiqlər göstərdilər. Halbuki faktiki olaraq seçkiləri Abdullah udmuşdu... Yəni o hakimiyyətləri xalq seçməmişdi... Odur ki, geczez yıxılmalıydılar...

İkincisi, əfqan ordusunda "komandos" birləşmələrindən savayı heç bir ordu bölməsi "Taliban"a qarşı vuruşmaq istəmədi. Sovet vaxtında da belə faktların şahidi olmuşuq. Əfqanıstanda əksəriyyətin bir-biri ilə qohumluq əlaqələri var və heç kəs qarşı tərəfdə olacaq qohumuna güllə atmaq istəmir...

Üçüncüsü və bəlkə də ən əsası, ABŞ-ın Əfqanıstana ayırdığı 1 trilyon dollara yaxın vəsaitin böyük bir hissəsi Əfqanıstan hökumət ordusunun qurulmasına xərclənsə də, həmin ordu sənədlərdə olduğu kimi qurulmayıb. Yəni sənəddə 300 min nəfər göstərilsə də, faktiki olaraq sırada heç 100 min hərbçi olmayıb. Araşdırmalardan bəlli olub ki, Əfqanıstan ordusunun hərbi qulluqçularının 200 mindən çoxu "ölü can"lardır. Yəni həmin sayda ştatlara maliyyə vəsaiti ayrılıb, amma əslində bütöv taborlar, briqadalar var ki, adı var, özü yoxdur. Bir sözlə, Əfqanıstan ordusuna ayrılan vəsaitin çoxu yeyilib. Həmin pullar da ilk növbədə prezidentin, onun məmurlarının Qərbdəki bank hesablarına yatırılıb. Və bu yeyintilərdə, sözsüz ki, Ağ evin və Pentaqonun bir sıra rəhbər məmurlarının da marağı olub. Bu olmasa, milyardlarla vəsaitin belə "havaya sovrulması" mümkün olmazdı. Bütün bunlar əfqan xalqının iqtisadi-sosial durumuna mənfi təsir göstərib. Eyni zamanda sonda ordunun azsaylı bir qüvvə qarşısında çökməsinə gətirib çıxarıb...

Son olaraq ABŞ "Taliban"la danışıqlarda razılığa gəldilər ki, diplomatlar Kabildən çıxanadək oraya hücum etməyəcəklər. Taliblər da buna əməl edərək paytaxta girmirdilər. Ancaq sonda Kabildə tam xaos hökm sürdüyünü, prezidentin qaçdığını, hakimiyyətin idarəolunmaz hala gəldiyini, tezliklə şəhərdə soyğunçuluğun, talançılığın baş alıb gedəcəyini görəndə "Taliban" rəhbərliyi qoşunların silahsız şəkildə paytaxta girməsinə qərar verdi. Məqsəd paytaxtda qismən də olsa, qayda-qanun yaratmaq idi.

Doğrudan da Kabilə girəndən sonra taliblər həmin qayda-qanunu yaratmağa başladılar... Biz görürük ki, "Taliban"ın qadınlara, təhsilə, biznesə münasibəti 1990-cı illərdəkindən fərqli olaraq normaldır. Heç bir xarici diplomata, qadınlara toxunulmur, hətta qadın "Taliban" liderləri ilə birgə müsahibə də verir. Belə bir vəziyyətdə hesab edirəm ki, istər qardaş Türkiyə, istərsə də Azərbaycan hərbçiləri üçün Kabildə heç bir təhlükə yoxdur. Paytaxtda sabitlik bərqəarar olandan, yeni hökumət qüvvələri ən vacib obyektləri nəzarət altına aldıqdan sonra bütün xarici hərbi qüvvələr Əfqanıstandan çıxarılacaq...

***✍ Sultan Laçın***

## Müsahib

***Nəhayət, "Taliban" Əfqanıstana nəzarəti ələ keçirdi, yaxınlarda hökumət quracaq və öz təbirincə desək, ölkəni inkişaf etdirəcək. Bunlar sonrakı mərhələdir, bu gün maraqlı olan təşkilatın 3-5 günə o boyda ölkəni necə ələ keçirməsidir. Sanki neçə illərdir Əfqanıstan xalqı oturub gözləyirmiş ki, "Taliban" "Gəlirəm", - desin, insanlar əllərinə gül alıb onları qarşılasınlar. Bəlkə doğrudan da belədir, ola bilər. Xalqı canına yığıbmış əvvəlki hökumətlər, nə bilim, ölkədə meydan sulayan xarici ordular və sair. Məsələni Əfqanıstanəsilli türkmən yazıçı Əsədullah Oğuzla müzakirə elədik.***

# "Xalq "Taliban"ı sevmir..."

Bu arada vətəni Əfqanıstana bir neçə kitab həsr edən yazıçının son əsəri olan "Ölkəm və mən" (Ülkem ve ben) elə bun günlərdə Türkiyədə işıq üzü görüb. Kitabda 2001-ci ildə baş vermiş məlum 11 Sentyabr terror hadisəsindən günümüzədək Əfqanıstanda yaşananlar əksini tapıb. Kitabda Əfqanıstanda qurulan hökumətlərin rüşvət və korrupsiyaya qurşanması, ölkəyə ayrılan yardım pullarının ortalıqda "buxarlanması", NATO və ABŞ-ın buraxdığı səhvlər və bütün bunların qarşılığında "Taliban"ın sürətlə güclənərək, tərəfdarlarının sayını artırması kimi faktlardan bəhs edilir.

**İndi isə müsahiblə söhbət nəzərdən keçirək:**

- "Taliban" Əfqanıstanı ələ keçirmədi, əksinə, təslim aldı. Bir neçə ay əvvəldən ABŞ, əfqan hökuməti, "Taliban" və Pakistan arasında Əfqanıstan iqtidarını "Taliban"a təslim eləmək haqqında razılığa gəlinib. Məhz bu səbəbdən hamımızın gördüyü kimi, ordu müqavimət göstərmədən təslim oldu. Əminəm ki, razılaşma olmasaydı, "Taliban"ın dövlətə nəzarəti belə asanlıqla ələ keçirməsi mümkün deyildi.

***- "Taliban" 20 il öncə də hakimiyyətə gəlmişdi, amma 2001-ci ildə məlum 11 Sentyabr terrorunu bəhanə edərək Əfqanıstana hücum edən ABŞ-a məğlub olaraq öncə Qəndəhara, sonra da dağlara çəkildi. Birmənalı şəkildə deyirəm: İslam-şəriət donuna girərək xalqın başına min oyun gətirdi "Taliban". Nəticədə də insanlar canlarını götürüb qaçaraq, dünyanın dörd yanına yayıldılar. Maraqlıdır, bu gün özlərini nisbətən mülayim, daha dünyəvi göstərirlər. Necə bilirsiniz, "Taliban" dünyəvi ola biləcəkmi?***

- Onlar qətiyyən dəyişməyib, təməl prinsiplərinə sadiq eyni təşkilatdır, eyni düşüncəyə sahibdir. Nəzərə alaq ki, onlar da hamı kimi, bu 20 il ərzində texnologiyadan istifadə etməyi, sosial medianı və diplomatiyanı daha dərindən öyrəniblər. "Taliban" 1990-cı illərdəki qaranlıq idarəetməsinin yenilənmiş versiyasını tətbiq etməyə çalışacaq. Bu da köhnə qaydaların və yasaqların bir az daha yumşaldılacağı mənasını verir. Yenə deyirəm: təməl prinsipləri qətiyyən dəyişməyəcək. "Taliban"dan demokratiya və insani hüquqlara hörmət gözləmək xəyal olardı.

> *"İndiyədək Orta Asiya respublikalarından heç biri Əfqanıstanda yaşayan soydaşlarımıza dəstək verməyib və bu gün də vermir*

***- Əfqan xalqı bütövlükdə qəbul edirmi "Taliban"ın iqtidarını? Məsələn, onsuz da olmayan azadlığı əllərindən alınmış qadınlar, dünyaya açılmağa çalışan, sabahının xəyallarını quran gənclər...***

- Göründüyü kimi deyil - əfqan xalqı "Taliban"ı qətiyyən istəmir. Buna baxmayaraq xalq müharibələrdən, səfalətdən bezib. Hamı istəyir ki, qanlı müharibə, silahlı toqquşmalar başa çatsın. Hansı ki, dünənədək hər gün Əfqanıstanda, ən azı, 500 - 600 nəfər silahlı qarşıdurmaların qurbanı olurdu. "Taliban"ın ölkəyə hakim olması ilə toqquşmalar dayandı, amma əvəzində, insan azadlıqları birdəfəlik aradan qaldırıldı. Əslində, ucqar kəndlərdə yaşayan insanlar silahlı qarşıdurmaların dayanmasından məmnundur. Bunu şəhərlilər, təhsilli insanlar üçün demək olmaz. Şəhər camaatı, təhsilli, mədəni, dünyagörüşlü insanlar azadlıqları əllərindən alındığı üçün son dərəcə üzgün və kədərlidir. Onlar heç bir halda "Taliban"ın hakimiyyəti altında, onun sərt şəriət qaydalarına tabe şəkildə yaşamaq istəmirlər. Bu səbəbdən, hamısı, yəni şəhərli və təhsilli insanlar Əfqanıstandan çıxıb istənilən ölkəyə getməyə çalışırlar.

***- Bəzi ölkələr "Taliban"a çox isti yanaşır. Rusiya, Çin, İran, Türkiyə, Pakistan, bir çox ərəb ölkələri "Taliban"la əlaqə qura, onun iqtidarını tanıya biləcəklərini səsləndirirlər. ABŞ və ətrafına toplaşan Qərb ölkələri bloku isə bır az məsafə saxlayır. Sizcə, "Taliban" qanuni hökumət olaraq dünya birliyi tərəfindən tanınacaqmı yaxın vaxtlarda?***

- Qonşu ölkələrə problem lazım deyil, onlar "Taliban"la dil tapmağa çalışırlar. Elə ona görə də indidən "Taliban"ın hakimiyyətini rəsmən tanımağa həvəslidirlər. Qərb ölkələrinə gəldikdə, onlar "Taliban"ın demokratiya məsələsində nümayiş etdirdiyi sərt mövqedən narahatdırlar. Hansı ölkənin nə fikirləşməsində asılı olmayaraq, yeganə çözüm yolu Əfqanıstanda möhkəm özüllü və bütün tərəflərin iştirakıyla iqtidarın qurulmasıdır. Bu olarsa, hər kəs yeni hökuməti rəsmən tanıyacaq.

***- Ümumiyyətlə, necə olub ki, "Taliban" yaradılıb? Şəxsən mənim araşdırmalarım Pakistanın üzərində dayanır. Siz bu prosesi necə dəyərləndirirsiniz: "Taliban"ı kimlər yaratdı və günümüzədək üzərində ciddi təsiri olan ölkə varmı?***



**Əsədullah Oğuz,**
Əfqanıstanəsilli türkmən
yazıçı

- Bilmək lazımdır ki, "Taliban" rəsmən Pakistanın məhsuludur. Xaricdən yardım edilməsə, mədrəsə tələbəsi olan insanların geniş hərbi hücumları planlaşdırması, idarə etməsi və ordusu-cəbbəxanası olan bütöv bir dövləti ələ keçirməsi mmükün deyil. "Taliban"ın bütün planları və strategiyası, Pakistanın xüsusi kəşfiyyat idarəsi olan İSİ tərəfindən hazırlanır və tətbiq edilir. Fikir verin, Pakistan uzun illər Üsamə Bin Ladeni İslamabad yaxınlığında bir evdə gizlətdiyi halda, ABŞ-a "Bin Laden bizdə deyil", - deyirdi. Deməyim budur ki, Pakistanın nəyisə inkar etməsi reallığı dəyişdirməyəcək.

***- Əfqanıstan çoxmillətli dövlətdir, orada puştunlarla yanaşı, taciklər, özbəklər, türkmənlər və digər böyük etniklər yaşamaqdadır. Özbəkləri Özbəkistan, türkmənləri Türkmənistan, tacikləri Tacikistan dəstəkləyərsə nə baş verər Əfqanıstanda? Ümumiyyətlə, bu, mümkün görünürmü?***

- İndiyədək Orta Asiya respublikalarından heç biri Əfqanıstanda yaşayan soydaşlarımıza dəstək verməyib və bu gün də vermir. Əfqanıstanda sabitlik və rifah bərqərar olarsa, həmin ölkələr də rahat yaşayacaqlar. "Taliban"ın Əfqanıstanda iqtidara gəlməsi isə əksinə, radikal islamçılığı və digər zorakılıq meyllərini sərhəddən Orta Asiyaya keçirə bilər.

***- Etniklərdən söz düşmüşkən, tacik və özbəklər Pəncşirdə toplaşaraq "Taliban"a qarşı müharibəyə başlayıblar. Onlar öz torpaqlarını müdafiə edəcəklərini və "Taliban"a boyun əyməyəcəklərini bəyan ediblər. İki dəfə "Taliban"ın göndərdiyi cəza dəstələrini məğlub da ediblər. Sizcə, bu proses davam edəcəkmi? "Taliban"a qarşı dayana biləcəkmi Əhməd şah və digərləri? Onlar Özbəkistan və Tacikistan, hətta bu ölkələrin adı ilə Rusiya tərəfindən dəstəklənə bilərmi?***

- Düzdür, müxaliflər Pəncşir vadisində toplaşıblar, amma sayları və təsiretmə qüvvəsi elə də böyük deyil. Eyni zamanda, bunu da yaddan çıxarmayaq ki, Şimal İttifaqının liderləri əfqan xalqının nəzərində etibar və inamı itiriblər. Bu gün xalq arasında onları sevənlər o qədər də çox deyil, çünki kimsə müharibə istəmir. Ona görə də hesab edirəm, müxalifət "Taliban"ın qarşısında əvvəlki kimi güclü duruş gətirə bilməyəcək. Yeganə istisna var: əgər xarici ölkələr müxalifləri dəstəkləsələr, bəli, uzunmüddətli direniş baş verəcək, əks halda mümkün deyil.

***- "Taliban" paytaxt Kabili ələ keçirmədən az öncə özbəklərin Əfqanıstanın şimalında yerləşən öz etnik ərazilərində müstəqilliklərini elan edəcəkləri bildirilirdi. Əhməd şahın ordusununun direnişi Əfqanıstanın parçalanmasına yol aça bilərmi?***

- Əfqanıstan 43 ildir müharibədədir. İndiyədək ölkədə yaşayan heç bir xalq, o cümlədən nə taciklər, nə özbəklər, nə də türkmənlər müstəqillik sözünü dilə gətirməyiblər. Bilirsiniz, ayrılmaq, müstəqil dövlət qurmaq üçün xalqın dəstəyini qazanmaq lazımdır. Bu da mümkün deyil, hazırda əfqan xalqının gündəmində və ağlında belə bir şey yoxdur.

***✍ Vüsal Tağıbəyli***

# Xaricdə təhsil alan gənclərimiz

## Araşdırma

***Bu** gün bir çox gənclərimiz təhsil almaq üçün yerli universtetlərə deyil, xarici ali məktəblərə üz tuturlar. Onların bir hissəsi dövlət xətti, digər bir qismi isə öz vəsaitləri hesabına xaricdə təhsillərini davam etdirirlər. Ölkədən kənarda təhsil almağa yollanan gənclər hesab edirlər ki, uğurlu karyeraya gedən yol məhz xaricdə təhsildən başlayır. Maraqlıdır, görəsən, hazırda xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin sayı neçə nəfərdir? Onlardan neçə nəfəri dövlət xəttii hesabına təhsil alır? Tələbələr daha çox hansı ölkələrdə və hansı ixtisaslar üzrə təhsil alırlar? İndiyədək, ümumilikdə, dövlət xətti ilə təhsil alan tələbələrdən neçə nəfəri təhsilini başa vuraraq Azərbaycana qayıdıb? Həmin tələbələrdən neçə nəfəri işlə təmin olunub?*

Bununla bağlı apardığımız araşdırmalar göstərir ki, xaricdə yüksək səviyyədə təhsil alan gənclərin böyük bir hissəsi Azərbaycana geri qayıtmaq və burda qalıb işləmək istəmir. Qayıdan məzunlar isə əsasən dövlət deyil, özəl müəssisələrdə işləməyi üstün tuturlar. Məzunlar bunu dövlət sektorunda əmək haqqının o qədər də yüksək olmaması, eyni zamanda karyera qurmaq üçün özəl sektorun daha münasib olması ilə izah edirlər.

### Çoxluq tibb, hüquq, informasiya texnologiyaları ixtisasını seçir

**■ Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən təhsil eksperti Kamran Əsədovun sözlərinə görə, xarici ölkələrdə təhsil almaq üçün gedənləri əsasən bir neçə qrupa bölmək olar:**

“Onlardan biri Dövlət İmtahan Mərkəzi tərəfindən keçrilən qəbul imtahanlarında topladıqları ballar burda ali məktəblərə qəbul olmağa imkan verməyənlərlədir ki, bunların sayı hədsiz dərəcədə çoxdur. Bu kateqoriyaya aid olan şəxslər daha çox Ukrayna, Rusiya, Dərbənd, Dağıstan, Gürcüstan kimi ərazilərin universitetlərində təhsil almağa üstünlük verirlər. Bu ölkələrdə təhsil almağa gedənlərin əksəriyyəti hüquq, maliyyə-iqtisadiyyat kimi ixtisaslara daha çox üstünlük verirlər. İkinci kateqoriyanı o şəxslər təşkil edir ki, onlar Azərbaycanda ali məktəblərə qəbul olurlar, amma aldıqları təhsil onları qane etmir. Ona görə də daha yüksək səviyyədə təhsil almaq üçün xarici ölkələrə üz tuturlar. Müəyyən şəxlər də var ki, ali təhsil almaq istəyir, amma Azərbaycanda təhsil haqları yüksək olduğu üçün daha ucuz təhsil haqqı olan ölkələrə gedirlər. Bu şəxslər daha çox Türkiyə, Macarıstan və digər Avropa ölkələrinin universitetlərinə üz tuturlar və seçdikləri ixtisaslar tibb, kompüter və ya informasiya texnologiyaları, nano texnologiya kimi ixtisaslar olur. Üçüncü kateqoriyanı isə 2007-2015-ci illəri əhatə edən xaricdə təhsil dövlət proqramı çərçivəsində xarici ölkələrdə təhsil almağa gedənlər təşkil edir. Bu proqram çərçivəsində daha çox Azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almalarını və ölkənin inkişafının mühüm amilinə çevrilmələrini təmin etmək məqsədi güdülürdü. Xaricdə təhsil proqramı ilə gəncləri daha çox müəyyən edilmiş prioritet ixtisaslar beynəlxalq münasibətlər, tibb, baytarlıq, kənd təsərrüfatı, mühəndislik, yüksək texnologiyalar, qədim dillər ixtisasları əhatə edir.

Dövlət proqramının əsas məqsədinin rəqabət qabiliyyətli iqtisadi sistemin formalaşdırılması və davamlı inkişafın təmin edilməsi baxımından ölkəmizin müasir tələblərə cavab verən kadrlara ehtiyacının ödənilməsi, istedadlı gənclərin dünyanın inkişaf etmiş ölkələrində təhsil almaq imkanlarının genişləndirilməsi prosesinin səmərəliliyinin artırılmasını təmin etməkdən ibarət olduğunu nəzərə alsaq, qeyd olunun ixtisaslar çox vacibdir. Amma proqramın effektivliyini əmək bazarında müşahidə etməmişik. Belə ki, daha çox dövlət orqanları üçün nəzərdə tutulmuş kadrlar əmək haqqının azlığı və perspektivin olmaması ucbatından özəl sektorda çalışmağa üstünlük verirlər”.



### 5000-ə yaxın gəncin təhsil almağa göndərilməsi planlaşdırılırdı, amma...

**Ekspert vurğulayıb ki, hazırda xarici ölkələrdə öz vəsaiti hesabına təhsil alan azərbaycanlı tələbələrin sayı 42 min nəfərdir:** “Onlardan 21 min 600-ü qardaş Türkiyədə, 8 mini Ukraynada, qalan 6 minə qədəri Rusiya və Gürcüstanda, eyni zamanda, digər Avropa və ABŞ universitetlərində təhsil alırlar. “Dövlət qulluğu” haqqında qanunvericiliyin tələblərinə görə, yalnız Dövlət Proqramı çərçivəsində xarici ölkələrdə təhsil alan şəxslər dövlət qulluğu imtahanının test mərhələsindən azaddırlar və onlar birbaşa müsahibə mərhələsinə buraxılırlar. Hesab edirəm ki, bu qaydaları müəyyən qədər təkmilləşdirmək lazımdır. Birinci, dövlət özü müəyyənləşdirməlidir ki, daha çox hansı sahələrdə bizim kadra ehtiyacımız var. Məsələn, səhiyyə, iqtisadiyyat, turizm, təhsil sahəsində ciddi şəkildə kadra ehtiyacımız var. Digər tərəfdən, hesab edirəm ki, istər Dövlət Proqramı çərçivəsində, istər öz vəsaiti hesabına dünya reytinqində ilk 500-də yeri olan ali məktəblərdə təhsil alan şəxslərə işə qəbulda imtiyaz olmalıdır. Yəni,onlar birbaşa müsahibə mərhələsinə buraxılmalı və işlə təmin edilməlidirlər. Nəzərə alsaq ki, Azərbaycan universitetləri dünya reytinqində demək olar ki, yoxdur və çox geridədirlər. Bu baxımdan biz ilk reytinq sıralamasında ilk 500-də yer alan ali məktəblərin məzunlarına iş imkanı yaratmalıyıq. Onu deyim ki, “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”da 5000-ə yaxın azərbaycanlının xaricdə təhsil almağa göndərilməsi nəzərdə tutulurdu, amma 3500 nəfər göndərildi və bu işə 110 milyon manata yaxın vəsait sərf olundu . Onlar arasında ölkəyə qayıdıb gələnlərin sayı o qədər də çox olmadı. Ya da bir müddətlik Azərbaycana qayıtdılar, sonra isə ölkəni tərk etdilər. Bütün hallarda hesab edirəm ki, biz mütləq şəkildə dövlət vəsaiti hesabına oxuyanların müqavilələrinə müəyyən bənd əlavə etməliydik ki, onlar qayıdıb Azərbaycana gəlməli və işləməlidirlər”. K.Əsədov gəncləri xaricdə təhsilə meylləndirən səbəblərə də toxunub və bildirib ki, bu gün Azərbaycan universitetləri əmək bazarının tələblərinə uyğun kadr yetişdirə bilmirlər: “Bu gənclərin xaricdə təhsil almaq istəyinin bir səbəbidir. Biz ali təhsilin keyfiyyəti artırmalıyıq. Təsəvvür edin ki, bu gün pedaqoji təhsilli bir şəxs müəllim olmaq üçün repetitor yanına hazırlığa gedir. Digər bir səbəb isə bizdə təhsil haqqının baha olmasıdır. Azərbaycanda ən ucuz təhsil haqqı 2000-2500 manatdır. Türkiyədə isə 400-500 manatdır. Yəni, gənclər xaricdə təhsilə təhsil haqqının baha, keyfiyyətin aşağı olması səbəbindən meyl edirlər”.

> “
> *Hazırda xarici ölkələrdə təkcə öz vəsaiti hesabına təhsil alan azərbaycanlı tələbələrin sayı 42 min nəfərdir*

### Xaricdə dövlət hesabına təhsil 3 istiqamətdə həyata keçirilir

**■ Məsələ ilə bağlı hafta.az-ın sorğusuna cavab olaraq Təhsil Nazirliyindən bildirilib ki, hazırda xaricdə dövlət hesabına təhsil 3 istiqamətdə həyata keçirilir.** 2020/21-ci tədris ili üzrə təhsil alanlardan 20-yə yaxın şəxs “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”, 700-dən çox şəxs Hökumətlərarası Təqaüd Proqramları (HTP), 90-a yaxın şəxs isə “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində təhsillərini davam etdirirlər. Ümumilikdə, 800-dən çox Azərbaycan Respublikası vətəndaşı dövlət hesabına xaricdə təhsil alır. Dövlət xətti ilə təhsilini davam etdirən tələbələr əsasən, Macarıstan, Çin, Rumıniya, Türkiyə və Rusiya kimi ölkərdə, Tibb, Mühəndislik, İqtisadiyyat və Kompüter elmləri ixtisasları üzrə təhsil alır.

2020-2021-ci tədris ilində HTP çərçivəsində ümumilikdə 234 nəfər Azərbaycan Respublikası vətəndaşı dünyanın 6 müxtəlif ölkəsində 43 ali təhsil müəssisəsində təhsil almaq hüququ qazanıb. Azərbaycan Respublikası vətəndaşlarının 2020-2021-ci tədris ili üzrə HTP çərçivəsində xaricdə təhsil almaq hüququ qazandığı ölkələrdən 193 nəfər Macarıstan, 20 nəfər Çin Xalq Respublikası, 8 nəfər Latviya, 5 nəfər Rumıniya, 5 nəfər Rusiya, 3 nəfər Qazaxıstanda təhsil almaq imkanı əldə edib. Onlardan 30 nəfər bakalavriat, 182 nəfər magistratura, 22 nəfər doktorantura təhsilini qazanıb.2019-2023-cü illərdə Dövlət Proqramı” çərçivəsində xaricdə doktorantura təhsilinin 2020-ci il üçün nəticələrinə görə, müsahibədən müsbət nəticə alan 29 nəfər olub. Müsahibədən azad olunanlar 7 nəfərdir. Müsbət nəticə almış, lakin imtina edənlərin sayı 2 nəfər olub. Müsahibə zamanı 8 nəfərə mənfi cavab verilib. Ümumi nəticəyə görə, müsbət cavab alanlar 11 ölkənin 22 ən nüfuzlu universitetlərində doktoranda təhsili hüququ qazanıb. Proqram iştirakçılarının qəbul olduğu ölkələr Türkiyə, Almaniya, Birləşmiş Krallıq, İtaliya, Belçika, ABŞ, Fransa, Rusiya, Niderland Krallığı və Lüksemburq olub. Əsas təbiət ixtisasları üzrə (26%) tətqiqat sahəsinə görə müraciət olub. Proqram iştirakçılarından 10 nəfəri Türkiyə, 9 nəfəri Almaniya, 5 nəfəri Birləşmiş Krallıq,

2 nəfəri ABŞ, 2 nəfəri Belçika, 2 nəfəri İtaliya, 1 nəfəri Fransa, 1 nəfəri Kanada, 1 nəfəri Lüksemburq, 1nəfəri Niderland Krallığında təhsil hüququ qazanıb. 9 yerli ali təhsil müəssisəsi bu prosesdə iştiraka qoşulub. Proqram iştirakçıları “2019-2023-cü illərdə Dövlət Proqramı” çərçivəsində təhsillərini bitirdikdən sonra Azərbaycana qayıdaraq müqavilə tərəfdaşı olan yerli ali təhsil müəssisələrində fəaliyyətə cəlb ediləcəklər.

İndiyədək təhsilin hər üç pilləsi üzrə dövlət xətti ilə təhsil alan tələbələrdən neçə nəfərinin təhsilini başa vuraraq Azərbaycana qayıtdığına gəlincə, Nazirlikdən bildiriblər ki, təhsilini bitirdikdən sonra ölkəyə qayıdaraq dövlət və özəl sektorda çalışmaq öhdəliyi yalnız Dövlət Proqramları məzunları üçün səciyyəvidir: “HTP xətti ilə xaricdə təhsil almaq hüququ qazanmış şəxslərin ölkə qayıtmaqla bağlı hər hansı hüquqi öhdəliyi yoxdur. “2007-2015 Dövlət Proqramı” çərçivəsində xaricdə təhsil almaq hüququ qazanmış şəxslərin böyük əksəriyyəti hazırda dövlət və özəl sektorda aparıcı mövqelərdə çalışır, müəyyən bir qismi isə təhsilini növbəti mərhələdə davam etdirir və ya təhsil aldığı ölkədə ixtisasartırma keçir”.

Həmin tələbələrdən neçə nəfərinin işlə təmin olunması barədə sorğumuza cavab olaraq isə Nazirlikdən bildirilib ki,bununla bağlı hər hansı öhdəlik daşımırlar: “Mövcud qanunvericiliyə uyğun olaraq, dövlət hesabına xaricdə təhsil almış şəxslərin Azərbaycanda işlə təmin olunması ilə bağlı Təhsil Nazirliyi hər hansı öhdəlik daşımır, lakin onların iş tapması, namizədliklərinin müvafiq vakansiyalar üzrə aidiyyəti dövlət qurumlarında dəyərləndirilməsi istiqamətində müvafiq dəstəkləyici tədbirləri mütəmadi həyata keçirir”.

✍ Sevinc

## “Əli Kərimli siyasi fəaliyyətinin uğursuz olduğunu bilir”



*“Əli Kərimli özü “Osmanqızı” TV-yə müsahibəsində qeyd edib ki, “Mən cəbhəçilərin partiyadan istefa verməsindən narazı qalmıram, heç kimi qınamıram və bizim qələbəmiz, uğurlarımız görünmür.*

Ona görə də istərdim ki, istefa versinlər və müstəqil həyatlarını yaşasınlar”. Bu etiraf Ə.Kərimlinin özünün perspektivinə inamsızlığının göstəricisidir”. Bunu hafta.az-a açıqlamasında “Azərbaycan fermeri” qəzetinin baş redaktoru, AXCP sədri Əli Kərimlinin əmisi oğlu Nuhəli Kərimov Ə.Kərimlinin “Milli Şura”nı buraxmaq barədə qərarını açıqlamasına münasibət bildirərkən deyib. Onun sözlərinə görə, Əli Kərimli, artıq öz siyasi fəaliyyətinin uğursuz olduğunu bilir: “Yəni istəyir ki, onunla əlaqəsi olan nə qədər siyasi qurumlar və fərdlər varsa anlasınlar ki, siyasi mübarizə aparmaq əbəsdir. Buna görə də, onu ittiham etməsinlər. Ancaq reallıq ondan ibarətdir ki, AXCP-nin və “Milli Şura”nın uçuruma sürüklənməsi Ə.Kərimlinin səhv, yanlış siyasəti səbəbindən baş verib”.

N.Kərimov onu da bildirdi ki, AXCP sədri Əli Kərimlinin “Milli Şura”dan imtina etməsi onun siyasətdən getməsi deməkdir: “Əli Kərimli xarici maraqlı dairələrin istək və arzularına uyğun fəaliyyətini qurduğuna görə, siyasi uğursuzluğa düçar oldu.

Xalqdan ayrı düşənlər, milli və dövlətçilik maraqlarına qarşı çıxanlar uğur əldə edə bilməzlər. Bu baxımdan, Ə.Kərimlinin siyasi intiharı gözlənilən idi. Əminəm ki, yaxın vaxtlarda AXCP də fəaliyyətini dayandıracaq. Sıravi üzvlər və partiya funksionerləri AXCP-nin gələcəyinin olmadığını anlayırlar. Sabahı müəmmalı təşkilatda qalmaq özözünü aldatmaqdan başqa bir şey deyil”.

✍ Tahirə

## Banklar Mərkəzi Bankın tövsiyəsinə əhəmiyyət vermir

**“Bu gün bankların əksəriyyəti Mərkəzi Bankın tövsiyəsinə əhəmiyyət vermir. İnsanlara pandemiya şəraitində problemli kreditlərə görə cərimə də hesablanır, məhkəməyə də verilir.**




Əslində problemli kreditlərlə bağlı məsələ tövsiyə xarakter daşıdığından bankların ona əməl etməsi məcburi deyil. İstəyən tövsiyəyə əməl edər, istəməyən etməz. Ortada hansısa qanun olmadığından bankları buna məcbur etmək olmaz”. Bu fikirləri hafta.az-a açıqlamasında bank məsələləri üzrə mütəxəssis Əkrəm Həsənov bildirib.

Ekspert vurğulayır ki, banklar özəl kommersiya qurumlarıdır və onların da öz borcları var: “Bir sıra ölkələrdə bu vəziyyətdə dövlət banklara kömək edir. Yəni, onların ziyanını bağlayır ki, krediti olanları banklar pandemiya dövründə narahat etməsinlər. Burada söhbət təkcə fiziki şəxslərdən deyil, həm də sahibkarlardan gedir. Pandemiya təkcə sadə vətəndaşlara deyil, həm də sahibkarlara ciddi təsir göstərib. Yəni, bu məsələ tövsiyə ilə həll olunan iş deyil.

Banklar görürük ki, onsuz da buna əməl etmirlər. Ona görə də məsələyə dövlət müdaxilə etməlidir. Kreditlər üzrə yaranan cərimənin və s. ödəyə bilər ki, problem qismən də olsa, həllini tapsın”. Xatırladaq ki, ”Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 30 iyun 2021-ci il tarixli 19 nömrəli qərarına əsasən pandemiyadan təsirlənmiş fiziki şəxslər və sahibkarlıq subyektlərinin maraqlarının qorunması və dəstəklənməsi davam etdirilərək cərimə faizi, dəbbə pulu və digər cərimələrin hesablanmamasına, borcalanların kredit öhdəlikləri üzrə gecikmələrlə bağlı onların kredit tarixçələrinin pisləşməməsinə dair kredit təşkilatlarına verilmiş tövsiyələrin müddəti 01 oktyabr 2021-ci il tarixədək uzadılıb.

Eyni zamanda, kredit və sığorta təşkilatlarının kapital mövqeyinin daha da möhkəmləndirilməsi, onların sərbəst maliyyə vəsaitlərinin kapitala yönəldilməsinin təmin edilməsi məqsədilə dividend ödənişlərinə tətbiq edilmiş məhdudiyyətlər həmin tarixədək qüvvədə saxlanılıb.

✍ Sevinc



**■ Bu ilin ötən dövründə 114 min e-qaydada pensiya, müavinət və təqaüd təyinatı aparılıb. Onlardan 16,3 mini pensiya təyinatları olub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən hafta.az-a bildirilib ki, 2019-cu ilin əvvəlindən sosial təminat növləri (pensiya, müavinət və təqaüd) üzrə ödənişlərin təyinatı elektronlaşdırılıb.**

Ötən dövrdə həmin sosial təminat növləri üzrə 40 mini pensiyalar olmaqla, ümumilikdə 240 minədək təyinat e-qaydada həyata keçirilib. Bununla da həmin sosial təminat növlərinə hüququ yaranan vətəndaşların müraciət etmələrinə və sənəd təqdim olunmasına ehtiyac qalmadan, proaktiv xidmət olaraq onlara müvafiq sosial ödənişlər e-qaydada təyin edilib.




**■ Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi birgə məlumat yayıb.**

Məlumata əsasən, “Azərbaycan Respublikasında “COVID-19xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası”na uyğun olaraq ölkə üzrə peyvəndlənmə prosesi davam edir. Son elmi tədqiqatlara əsasən, COVID-19xəstəliyi əleyhinə hər 2 doza vaksin almış bütün tibb işçilərinin, yaşı 60-dan yuxarı olan əhalinin və immun sistemi zəif şəxslərin 3-cü doza (“buster” doza) ilə peyvəndlənmələri tövsiyə edilir. Qeyd edək ki, “Peyvənd sertifikatı” müddətsizdir və 3-cü dozanın (“buster” doza) vurulması onun müddətinə təsir etmir.



**■ Cari ilin avqustun 1-nə Azərbaycanda geniş pul kütləsinin (M3) həcmi yeni tarixi rekorda - 31 507,3 mln. manata çatıb. Azərbaycan Mərkəzi Bankından (AMB) hafta.az-a verilən məlumata görə, bu göstərici aylıq müqayisədə 4% artıb.**

Banklardan kənarda nağd pul kütləsinin həcmi (M0) avqustun 1-nə 11 049,6 mln. manat təşkil edib ki, bu da aylıq müqayisədə 2,9%, illik müqayisədə isə 13,6% artım deməkdir. Qeyd edək ki, bundan əvvəl 2021-ci ilin iyunun 1-nə ölkədəki geniş pul kütləsinin həcmi indiyədək qeydə alınan ən yüksək göstəriciyə - 30,457 mlrd. manata çatmışdı. Xatırladaq ki, Beynəlxalq Valyuta Fondunun (BVF) yenilənmiş proqnozlarına görə, bu il Azərbaycanda geniş mənada pul kütləsi (M3) 8,3% artaraq 2021-ci ilin sonuna 31,608 mlrd. manata çatacaq.



**■ Cənubi Koreya hökuməti ABŞ-ın “Facebook” və “Netflix” şirkətlərini konfidensiallıq qaydalarını pozmaları ilə əlaqədar ümumilikdə 5,7 milyon dollara yaxın məbləğdə cəriməleyib.**

Bu barədə Koreyanın Fərdi məlumatların mühafizəsi komissiyası bildirib. Qeyd olunur ki, ”Facebook” 2018-ci ilin aprelindən 2019-cu ilin sentyabrınadək istifadəçilərin razılığı olmadan biometrik şablonların yaradılması və saxlanmasına görə 5,5 milyon dollar cərimə ödəməli olacaq. Bundan başqa, şirkət vətəndaşların fərdi identifikasiya nömrələrinin toplanmasında ittiham olunub. Eyni zamanda, ”Netflix” platforması 5 milyon Cənubi Koreya vətəndaşının məlumatlarının toplanması və ölkə xaricinə ötürülməsində ittiham olunaraq 188,5 min dollar məbləğində cərimələnib.



**■ Bakı Hərbi Məhkəməsində qəsdən adam öldürməkdə təqsirləndirilən sabiq birlik komandiri, general-leytenant Rövşən Əkbərovun cinayət işi üzrə keçirilməli olan məhkəmə prosesi təxirə salınıb.**

Hakim Həbib Həsənovun sədrliyi ilə keçirilməli olan prosesə məhkəmə tərkibindəki hakimlərdən biri gəlmədiyindən proses sentyabrın 1-nə təyin edilib. Qeyd edək ki, aparılmış istintaqla Rövşən Əkbərovun 2001-ci il mayın 31-dən iyunun 1-nə keçən gecə Kiyev şəhəri, Deqtyaryov küçəsi 7 ünvanda yerləşən “Sikora” kafesində yeyib-içdikdən sonra, saat 4 radələrində həmin kafenin yaxınlığında Elçin Əliyev ilə aralarında yaranmış cüzi münaqişə səbəbindən xuliqanlıq niyyəti ilə sonuncunun ürək nahiyəsinə kəsici-deşici predmetlə xəsarət yetirərək Elçin Əliyevi qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.



**■ Avqustun 24-ü saat 21 radələrində Xaçmaz rayon sakini Əsgərbəyli Əliağa Aydın oğlunun kəsilmiş-deşilmiş yaraları diaqnozu ilə Xaçmaz Rayon Mərkəzi Xəstəxanasına daxil olması barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Xaçmaz rayon prokurorluğundan hafta.az-a verilən məlumata görə, aparılmış araşdırmalarla zərərçəkmişin əmisi Rövşən Əsgərbəylinin həmin gün saat 20 radələrində yaşadığı rayonun Qaraqurtlu kəndindəki evində şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı Əliağa Əsgərbəyliyə bıçaqla çoxsaylı xəsarətlər yetirməsinə, sonra da tüfənglə atəş açaraq intihar etməsinə əsaslı şübhələr müəyyən edilib.

# Bir kitab yazacaq odlu ürək sahibi...

**Bədii söz sənəti yollarında inamlı addımlarını atan, amma "müəyyən bir auditoriyaya sahib şair kimi tanınan" Fazilova (Rəhimova) Nuranə Rafailqızı Azərbaycanın barlı-bəhərli diyarı Göyçay bölgəsində dünyaya göz açıb. Orta təhsil aldıqdan sonra Odlar Yurdu Universitetinin Müalicə işi fakültəsini bitirib. 2007-ci ildən ixtisası üzrə Göyçay Rayon Mərkəzi Xəstəxanasında həkim vəzifəsində çalışır. Ədəbi fəaliyyətə erkən, orta məktəb illərindən başlayaraq, tez-tez rayon və məktəb tədbirlərində söylədiyi şeirləri rəğbətlə qarşılanıb. Şeirləri ilk olaraq Nuranə Rafailqızı imzası ilə "Milliyyət" qəzetində, "Herbaflora" və "Yazarlar" jurnallarında işıq üzü görüb. Son illərdə yazdığı şeirləri isə "Kredo" qəzetində dərc olunub. Onun Nuranə Fazilova (Rəhimova) imzası ilə də şeirləri dərc edilib. 2016-cı ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkil etdiyi "Kiçikyaşlı uşaqlar üçün nəsr, nəzm və dram əsərləri" müsabiqəsində 4-cü yerə layiq görülüb, qalib əsərlərin yer aldığı kitabda 18 şeiri çap olunub, məktəb kitabxanalarına paylanıb.**



## Ədəbiyyat

*(Həkim-şair Nuranə Rafailqızının poetik yaradıcılığı haqqında düşüncələrim)*

2018-ci ildə Göyçay rayonunda təşkil olunan "Beynəlxalq Nar Festivalı"nda şeir müsabiqəsində "Göyçayın narı" şeiri ilə iştirak edib, 3-cü yerlə mükafatlandırılıb. 2021-ci ildə çapa hazırlanan «Həkimlərin söz dünyası» kitabında 10 şeiri ilə həmkarları arasında yer alıb. 2021-ci ildə "Gəlirik, Qarabağ" poeziya antologiyası kitabında 13 şeir və "Kimlərə qaldı dünya", "Nizami Gəncəvi - 880" antologiyasında 15 şeiri dərc olunub, həmçinin "Həyat bizi səsləyir" anologiyasında şeirləri yer alıb. Nuranə Rafailqızı Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqı tərəfindən "Qızıl qələm" media mükafatı ilə mükafatlandırılıb (15.04.-2021), eyni zamanda KİV tərəfindən "Fəxri şair" diplomuna layiq görülüb. Göründüyü kimi, Nuranə poetik yaradıcılıqla müntəzəm məşğul olub, nailiyyətlər əldə edə bilib, onun yaradıcılığı haqqında mətbuatda müsbət rəylər dərc edilib.

Hazırda onun "Həkimlər depresiya deyir..." adlı ilk şeirlər kitabı nəşr üçün hazırlanır və kitaba xeyir-dua vermək üçün istedadına və xeyirxahlığına inandığım şair-publisist, naşir Zaur Ustac mənə müraciət etdi. Nuranənin yaradıcılığı ilə ətraflı tanışlıqdan sonra onun poetik "dünyası" barəsində fikir və düşüncələrimi bildirmək qərarına gəldim...

Nürənə Rafailqızı əslində, ədəbiyyatla heç bir əlaqəsi, həmçinin filoloji təhsili olmayan, ədəbi əhatədən kənar, amma ədəbi-bədii düşüncəyə, poetik istedada malik yazarlar qrupuna daxildir. İstedadlı qələm sahiblərindən şair-publisist Zaur Ustacın onun haqqındakı bu fikri ilə tam razılaşıram: "Çox istedadlı qələm adamı... Nuranə Rafailqızı ixtisasca həkim olmasına baxmayaraq, artıq müəyyən bir auditoriyaya sahib şair kimi tanınmağa başlayıb". Yuxarıda sadaladığım faktlar da bunu təstiq edir.

Nuranənin şeirlərində onun bir qələm əhli kimi mərhəmətini, sədaqətini, sevgisini, dürüstlüyünü, paklığını görürsən. Görürsən ki, müəllifin də, müəllifdən sözə hopan ruhu da təmizdir, safdır, durudur... İç dünyası ilə dış dünyası müvazidir, aldadıcı deyil, sünilikdən uzaqdır. Şeirlərində özünün, yaşadığı mühitin, ən ümdəsi isə göz açdığı, boya-başa çatdığı bölgənin cazibədar ruhu, özünəməxsus söz düzümü, bu düzümün yaratdığı ahəng var və bunlar onun şeirlərinin spesifikası kimi qəbul edilə bilər.

Qeyd etdiyim kimi, "Həkimlər depresiya deyir..." Nuranənin ilk kitabıdır və müxtəlif mətbuat orqanlarında, toplularda, almanaxlarda dərc edilən şeirlərinin bir qismidir.

Bu şeirlərdə şairlik iddiasına düşməyən, təbii hissi ehtiyacdan yaranan, həkimlik peşəsinə yiyələnmiş incə, zərif təbiətli və həssas müşahidə qabiliyyəti olan gənc xanımın həyata münasibəti, yaşam tərzinin psixoloji məqamları, insani sevgisi, məhəbbəti, nifrəti, qəzəbi və s. doğru-dürüst, həzin bir lirizmlə əksini tapıb. Özü kimi sözü də səmimidir. «Bircə sən yoxsan dünyamda" şeirində olduğu kimi:

**Hər şeyim var..
Başımı salmağa evim-ocağım,
Qısılıb yatmağa küncüm-bucağım.
Halal zəhmət ilə rahat çörəyim,
Bir kitab yazacaq odlu ürəyim.
Bircə sən yoxsan dünyamda,
Yalnız arzumdasan, yalnız xülyamda**

**Hər şeyim var
Qızılım, mirvarim, incim-sədəfim,
Əqidəm, imanım, yönüm, hədəfim.
Başımın üstündə duran Allahım,
Xoşbəxt gələcəyə gedən sabahım.
Bircə sən yoxsan dünyamda,
Elə ona görə də
heç nə görünmür gözümə,
Bəzən özüm də yad gəlirəm özümə
Bircə sən yoxsan dünyamda,
Bircə sən yoxsan deyə
dağılır dünyam da**

Zənnimcə, bu lirizm mayasından mayalanan həyati faktlar, cizgilər, fraqmentlər bir insan taleyinin sözdə reallaşan sinematik kadrlarıdır... Ümumiyyətlə, bu şeirlər bir həkim-şairənin həssaslıqla duyduğu, gördüyü, yaşadığı həyati faktların poeziyasıdır. Bir həkim kimi isə xəstəsinə həssas, qayğıkeş, məlhəm münasibətini, peşəsindən sıyrılan koloriti belə şeirləşdirir və bu özünəməxsus həkimanə ruhunun lirik bədii ifadəsidir.

**...Kimi cavan, kimi qoca,
kimi körpə qucağında
Bir havanın həsrətində,
bir nəfəsin sorağında.
Gecələri sakit-səssiz
xəstəxana otağında
sübhə kimi cırıldayan
Bax,
həmən o yataq mənəm!**

Yaxşı olan budur ki, müəllifin qarşılaşdığı, gördüyü, eşitdiyi əlahiddə hadisələr, nəsnələr onun könlündə, ruhunda əks-səda verir, misralara, obrazlara, şeirə çevrilir.

Şairdə, ümumiyyətlə, qələm əhlində gərəkdir ki, fərqli düşüncə, dünyagörüş, zamanı vaxtında duymaq və gələcəyə yönəlik duyum, həssaslıq olsun. Nuranə Rafailqızı yaradıcılıqdan kənar sahədə, həkimlik peşəsində çalışmasına baxmayaraq (hərçənd, mən həkimliyə, Hippokrat andlı həkimliyə yaradıcılıq sahəsi kimi baxıram və onu da bilirəm ki, bu peşənin adı hükəma, fikir, filosof anlamlarına müvazidir), içində həkimanə bir poeziya - şair ömrü də yaşayır... Mənə elə gəlir ki, həkimliyin şairliyə yaxın, doğma cəhətləri var. Əvvəla, hər ikisinin obyekti İNSANDIR! Və hər ikisi, həkim də, şair də insanın sağlamlığı ilə məşğuldurlar, birisi fizioloji sağlamlığın, ikincisi isə mənəvi sağlamlığın keşiyindədir... Bu cəhətdən həkim də, şair də daim axtarışdadırlar. Nahaq yerə deyilməyib: "Sağlam canda sağlam ruh olar!" Məncə, həkimlik də, şairlik də ciddidən-ciddi ruhsal aləmdir... Nuranə həkimin poetik "mən"i onun "Mən" şeirində həssas psixoloji çalarda belə təqdim edilir:



**Bir ev var ki, uzaqlarda
hasarı yox, çəpəri yox.
Nə gələni, nə gedəni,
nə qalan bir nəfəri yox.
Bu Günəşdən, bu səmadan,
bu həyatdan xəbəri yox,
toz basmış, kifə bürünmüş
Bax,
həmən o otaq mənəm...**

Əlbəttə, bu şeiri avtoportret də adlandırmaq olar. Lirik "mən"in - müəllifin keçirdiyi əhval-ruhiyyə əks olunub. Təsvir olunan bu metaforik obraz - ev, əslində insan ömrünün obrazıdır, onun keçirdyi ömür yolunun astanalarıdır, müxtəlif çətinliklərdir, psixoloji iztirablardır... Və yaxud, "bu "mən" diqqətsiz misra, dərc olunmamış şeir, tənha fərd, ucqar kənd, oxunmamış kitab, tikilməmiş ev, uzun illərdir yanmayan soba", bu qəbildən olan həyati məqamlardır, addamaclardır... Məsələn, "Bir az səssizlik, bir az sənsizlik" adlı şeirində olduğu kimi:

**Bir stəkan çay istəyirəm,
yanında da limonu.
Bir qırıq qənd parçası,
bir kağız, bir qələm
cızmaqara edim onu
Vəssalam,
mənə bu da yetər hələlik!
Gün batar, ay doğar,
bir az səssizlik, bir az sənsizlik**

Nuranə Rafailqızının bu qəbildən olan şeirlərində incə, zərif qadın həssaslığı ilə yoğrulmuş rəğbət, şəfqət, dürüstlük, fədakarlıq, sədaqət, məhəbbət kimi insani keyfiyyətlərin öz istedadı, bacarığı gücündə vəsfi, tərənnümü daha qabarıqdır, öndədir... "Həkimlər depresiya deyir" şeiri bu cəhətdən səciyyəvidir:

**Dünyanın rəngi də qaçıb,
ağ-qara şəkillər kimi.
Divardan bizə boylanan
70-ci illər kimi.
Saralıb, solub, köhnəlib
güllər də eyni rəngdədi.
Bir sığala həsrət qalan
tellər də eyni rəngdədi.
Həftələr, aylar ötüşür
qoşulub dönür illərə.
Eyni rəngdə, eyni tonda
ömrü veririk yellərə.
Qocalıq da astanadan
üzümüzə gülümsəyir.
Mən deyirəm kefim yoxdu,
Həkimlər depresiya deyir!..**

**...Ağzımızın ləzzəti yox,
dadı qaçıb, tamı qaçıb.
Dünyada adam qalmayıb,
sonuncu adamı qaçıb.
Gecələr yuxum da qaçaq,
yorğan-döşək gəlir cana.
Elə hey, dönüb dururam,
gözüm dikilir tavana.
Gündüzləri çalmaz qapım,
nə qonşum var, nə qonağım.
Öz evimdə dəfn olmuşam,
daş məzarım, daş otağım.
Qurda-quşa ehtiyac yox,
öz içim özümü yeyir.
Mən deyirəm kefim yoxdu,
Həkimlər depresiya deyir!..**

Şair-həkimin "Həkimlər depressiya deyir" şeirlər kitabını ömrün sevgi, qayğı, sevinc, iztirab, qəm-qüssəli anlarının şeirə çevrilmiş forması da adlandırmaq olar... Kitabın ilkin əlyazma variantına söz-rəy yazmış Zaur Ustac demiş, onun şeirləri "könül rahatlığı, ruh sakitliyi" kimi də maraqlıdır. Doğrudan da bu maraqlı, hissiyyatlı, duyğulu şeirlər səmimiyyətdən doğulan isti, ilıq, estetik həzz yaradan təsirli poetik mətnlərdir:

**...Gecələr yuxum da qaçaq,
yorğan-döşək gəlir cana.
Elə hey, dönüb dururam,
gözüm dikilir tavana.
Gündüzləri çalmaz qapım,
nə qonşum var, nə qonağım
Öz evimdə dəfn olmuşam,
daş məzarım, daş otağım.
Qurda-quşa ehtiyac yox,
öz içim özümü yeyir.**

Bu şeirlər, poetik nümunələr boynuna müəyyən bir estetik təhəddüd, missiya götürən qələm sahibinin deyil, həyata duyğusal, tənhalığın, dərdin içindən boylanan həyatsevər, insanın mənəvi aləminin gizlinlərinə dalmağı bacaran bir ziyalı xanımın özünəbənzər zərif duyğularının şeirlə tərcümanıdır, ifadəsidir, bir xanımın sevgi və sayğısıdır...

Hətta onun şerlərdə yurda dönüşün, Qarabağa dönüşün sevincindən yaranan işıq, şəfəq, nur selini də aşkar görmək mümkündür və doğrusu, vətənsevər insanın sevinci hüdudsuzdur... Və bu vətənsevərlikdə hər kəsin öz şəxsi payı var və bunu hərə bir cür ortaya qoyur:

**Elə ki, mən boy atdım,
Yeridim addım-addım,
Anam tutub əlimdən
Bu daşı, bu torpağı,
Bu otu, bu yarpağı,
Yaşadığım küçəni,
Qızındığım ocağı
Göstərib vətən deyib!**

Əksər şairlərdə olduğu kimi, onun da lirikasının bir qismi sevgi, məhəbbət mövzusundadır. Bu şeirlərdə əsasən ayrılıq, hicran, kədər motivi, "sən gəlməz oldun" ovqatı, həsrət, yol gözləmək, ürək göynədən sevgi iztirabları və s. öz əksini tapıb. O şair yaradıcılıqda müəyyən nailiyyət qazana bilir ki, yaşadıqlarını və yaşaya biləcəklərini qələmə almağı bacarır. Elə bil, olacaqlar öncədən onlara agah olur. Bu şeirlərin əksəriyyəti, elə bilirəm ki, iztirabların, faciəli anların yanğısını söndürmək, içini yandıran közü dışarı atmaq, ruh aləmindəki fırtınları sakitləşdirmək üçün yazılır və bu qəbildən olan duyğu və hisslərin müəyən qismini gənclikdəmi, sonramı hamı keçirib. Hər kəsin içini yandıran belə duyğuları var. Ona görə də belə duyğuları səmimi şəkildə əks etdirən şeirlər hamı tərəfindən qəbuledilən olur, tutarlı, təsirli poetik mətnə çevrilir. "Sev ki, sevən mərd olar!" (Hüseyn Kürdoğlu) poetik prinsipi bu qəbildən şeirlərdə gücə, enerjiyə, ehtizaza səbəb olur... "Ölümsüz sevgi" lirikası, balladası yaranır, "öyrətmə özünü, öyrətmə mənə" (Müsa Yaqub) serenadasına dönür...

**Ey fələk, bu gecə
könlümü gəl, dindir!
Bir sən ol, bir də mən,
bir də ki təkliyim,
Bitməsin sübhədək
əlindən çəkdiyim...
Durmadan özünə,
lap elə üzünə
eyləyim şikayət!
Ürəyim boşalsın, nəhayət...
Vəssalam, mənə bu da yetər hələlik,
Gün batar, ay doğar,
bir az səssizlik, bir az sənsizlik...**

Bu misralardakı hissin ecazı, poetik fikrin epitet səviyyəsində təqdimi yeni məhəbbət lirikasının nümunəsinə dönür, lirik xarakterin duyğuları "Bircə sən yoxsan deyə dağılır dünyam da", - deyə haray çəkir:

**Hər şeyim var..
Başımı salmağa evim-ocağım,
Qısılıb yatmağa küncüm-bucağım.
Halal zəhmət ilə rahat çörəyim,
Bir kitab yazacaq odlu ürəyim.
Bircə sən yoxsan dünyamda,
Yalnız arzumdasan, yalnız xülyamda
Hər şeyim var
Qızılım, mirvarim, incim-sədəfim,
Əqidəm, imanım, yönüm, hədəfim.
Başımın üstündə duran Allahım,
Xoşbəxt gələcəyə gedən sabahım.
Bircə sən yoxsan dünyamda,
Elə ona görə də
heç nə görünmür gözümə,
Bəzən, özüm də yad gəlirəm özümə
Bircə sən yoxsan dünyamda,
Bircə sən yoxsan deyə
dağılır dünyam da**

Yaradıcı adamların ömrü, əslində, insanlığa, bəşərə, vətənə həsr olunmuş ömürlərdəndir. İnsanların ünsiyyətini asanlaşdıran və həmişə canlı, dinamik saxlayan ədəbiyyatdır, incəsənətdir və doğrudan da bu, bəşəri dəyərdir, dinindən, irqindən asılı olmayaraq bu günə və gələcəyə insanların birgə baxışıdır. Sənətin əsas missiyası adi insanların adi baxdıqları, hər gün gördükləri hadisələri, insanları, hətta əşyaları, ağacı, yarpağı, budağı fərqli şəkildə, daha gözəl ampulada təqdim etmək, sevdirmək, görünənin görünməz tərəflərini göstərməkdir. Hətta "Fələklə" belə, cəngi-cidala çıxmaq, polemikaya girişmək gücüdür. Bu şeirdə "Fələk" qeyri-adi metaforik obrazdır. Əslində, bu, poeziyanın (eləcə də bədii yazıların) metaforik təbiətə malik olmasındandır.

Metaforik düşüncə estetik həzz, psixoloji enerji yaradır və burada - metaforik düşüncədə ağıl və xəyal gücü təbii, harmonik şəkildə birləşir. Sənətin, sənətkarın bacarığı, istedadı yeni və təsirli metaforalar yaradaraq, onlardan bacarıqla istifadə edərək yepyeni duyğular, hisslər, dəruni fikirlər, gerçəkliyə bağlı xəyallar doğura bilməkdir. Şair, yazar, alimin yazdıqlarında, düşüncəsində metaforik güc, enerji olmasa, o zaman oxucuya lazımi təsir göstərə bilməz. Tanınmış dilçi, professor İsmayıl Kazımov yazır: "Metaforlar dilin dilidir. Dilin imkanlarını sərhədsiz bir duruma salır...". Belə götürəndə, Nuranə Rafailqızı bir qələm sahibi kimi metaforik düşüncədən, bədii-poetik vasitədən bacarıqla istifadə edir, elə "Mənə bir az nağıl danış" şeirindəki kimi. Bu şeirdə müəllif folklor-nağıl motivlərindən metaforik qəliblərdə bacarıqla istifadə edib, günümüzün reallıqlarını canlandıra bilib:

**Mənə bir az nağıl danış,
ruhum bir az təzələnsin.
Səmadakı ulduzlardan
göydən yerə nur ələnsin.
Danışginən bədirlənmiş
14 gecəlik ayından,
Günəşin bizə verdiyi
bir ovuc ümid payından.
Bir az külək, bir az çovğun,
bir az bulud, bir az yağış.
Başımı qoyum dizinə
mənə bir az nağıl danış!**

**...Mənə bir az nağıl daniş,
yuxum tökülür gözümdən.
Danış qoy başım qarışsın,
özüm bezmişəm özümdən.
Məcnun kimi dönə-dönə
dolanıram otaqları.
Lap əlimdən zara gəlib
evin bütün yataqları.
Göz dikdiyim tavan bezib,
bezib yorğan, bezib balış.
Başımı qoyum dizinə,
mənə bir az nağıl danış!
...Bir gecəlik uşaq olum,
saçımda-dən, üzdə-qırış.
Başımı qoyum dizinə,
mənə bir az nağıl danış!
...Mən hələ də uşaq kimi
inanıram nağıllara...
Duyğularım, istəklərim
darma-duman, qarma-qarış.
Başımı qoyum dizinə,
mənə bir az nağıl danış!**

Burada Nuranə Rafailqızı özünü sehirli nağıl dünyasında hiss edir, daxilindəki kövrək, təmiz uşaqlıq dünyasının ülviyyətinə dalır... Onun bir şair, bir yazar kimi bu xüsusiyyəti imkan verir ki, uşaqlar üçün də təsirli, səmimi, duyğulu şeirlər yazsın. Uşaqlar üçün yazdığı şeirlərdə müəllif sanki bir ana kimi daha həssas olur, uşaq dünyasının psixolojisinin duyumlu məqamlarını aşkarlaya bilir və folklor qaynaqlarından da bəhrələnir.

Qeyd edək ki, dəyərli ədəbi faktın, mövzunun reallaşması isə böyük mənəvi güc və peşəkarlıq, həm də sarsılmaz inam, əzm, iradə və əlbəttə ki, böyük sevgi tələb edir... Nuranə Rafailqızı bədii təsvir vasitələrindən dəyərincə istifadə edə bilir, müəllifin qəlbinəki incə, zərif duyğular, insani hissləri süsləyir, onları daha da ülvüləşdirir. İnanıram ki, o, şair kimi püxtələşdikcə daha maraqlı mövzuları əhatə edəcək, özünün dediyi kimi, kitabı-qələmi din-imanı olacaq, çox-çox ağ vərəqləri söz yurduna çevirəcək:

**Gah deyirəm bədahətən,
gah yazıram kərən-kərən.
Bir şeirəm qafiyəsi,
hecaları pərən-pərən.
Şairlərin din-imanı,
Quranı, kitabı-qələm,
ağ köksündə qara yazı
Bax,
həmin o vərəq mənəm!**

Mənə elə gəlir ki, bu şair xanım - Nuranə Rafailqızı bildiyi, bacardığı, qavraya bildyi işlərlə məşğul olur və bu cəhət onun şeirlərindən boylanır. Elə bil ki, şeir yazmaq da onun alın yazısıdır. Əgər bu cəhəti dürüst duymuşamsa, gəlin, birlikdə onun alın yazısının ilk kitabına mübarək deyək.

***Qurban Bayramov,***
*tənqidçi-ədəbiyyatşünas, doktor - professor, "Səməd Vurğun mükafatı" və "Vintsas" mükafatı laureatı*

# Uşaqlar arasında yayılan COVİD-19-un simptomları açıqlandı



***"Hazırda uşaqlar arasında öskürək, mədə-bağırsaq şikayətləri, səbəbsiz temperatur yüksəlməsi halları artıb.***

Güman edirəm ki, bu, koronavirusun uşaqlar arasında yayılan formasıdır. İndi artıq klinika əvvəlki kimi getmir, tamam fərqli bir klinikadır. Bu gün xəstələr halsızlıq, boğulma, yüksək temperaturla yanaşı, daha çox kəskin başağrılarından şikayət edirlər. Əvvəl başağrısı yox idi, indi kəskin, dözülməz başağrıları ortaya çıxıb. Ona görə də virus infeksiyası varsa, qapanmalara getməliyik". Bu fikirləri hafta.az-a açıqlamasında Azərbaycan Tibb Universiteti Yoluxucu xəstəliklər kafedrasının dosenti, infeksionist Könül Cəfərova deyib. Mütəxəssis bildirir ki, vəziyyətin sabitləşməsi üçün qapanmaya getmək mütləqdir: "Əlbəttə ki, məktəblər açılmalıdır, nə qədər onlayn təhsillə davam etsək də, görürük ki, nəticələr istədiyimiz səviyyədə deyil. Amma biz həm də unutmamalıyıq ki, çox təhlükəli virusla üz-üzəyik. Yoluxma sayı hər gün artır. Gündəlik yoluxmanın 4000 həddində olması nə deməkdir? Bu, yaxşı göstərici deyil. Əvvəlki dövrlərdə xəstələr arasnda ölüm sayı da az idi. Amma indi ölüm sayı çox yüksəkdir. Bizim üçün həyəcan təbili deməkdir. İnsanlarımız ehtiyatlı olmalıdırlar. Xəstəliyə, açıqlanan statistikaya inanmayan insanlar yenə də var. Burada yalandan söhbət gedə bilməz. Hamının qohum-əqrəbası, tanışı var, görürük ki, xəstəliyi hansı formada keçirirlər. Ona görə də biz mütləq vaksin vurdurmalıyıq. Vaksin vurdurmaq o demək deyil ki, biz xəstələnməyəcəyik. Əlbəttə ki, xəstələnəcəyik, sadəcə xəstəliyin klinikası ağır olmayacaq. Əgər biz məktəblərin, digər müəssisələrin açılmasını istəyiriksə, hamılıqla peyvənd vurdurmalıyıq. Məktəbə uşaq göndərən valideyn də peyvənd olunmalıdır.

Çünki o, da istər-istəməz məktəblə kontaktda olacaq. Bir daha vətəndaşlarımızdan xahiş edirəm ki, bu məsələyə ciddi yanaşsınlar. Eyni zamanda, maska taxsınlar, ara məsafəsi saxlasınlar və dizinfeksiya məhlullarında düzgün istifadə etsinlər. Qaydalara riayət etsinlər ki, məktəblər, universitetlər də normal şəkildə fəaliyyətini bərpa edə bilsin".

***Sevinc***

# "Nar"ın Azərbaycandilli səsli kitabxanaya dəstəyi davam etdirir

R




**Ölkənin ən böyük səsli ədəbiyyat kitabxanasını yaratmaq məqsədilə "Nar" "Canlı kitab" sosial layihəsini davam etdirir.**

Bu günə qədər layihə çərçivəsində dünya və Azərbaycan ədəbiyyatından 35 müəllifin 276 əsəri ana dilimizdə audiokitab şəklində "YouTube" kanalında yerləşdirilib. "Radio Antenn" 101 FM-lə birgə hazırlanan layihənin məqsədi mütaliəni hər kəs, o cümlədən, görmə məhdudiyyətli şəxslər üçün daha əlçatan etməkdir. Davamlı yenilənən "Canlı kitab" kanalında müxtəlif janrlarda və həcmlərdə olan bədii əsərləri asanlıqla dinləmək mümkündür. Bundan başqa, həftə sonları saat 12:00-dan 14:00-dək "Radio Antenn" 101 FM dalğasında "Canlı kitabı" birbaşa efirdə dinləmək mümkündür. Yayım eyni zamanda radionun və "Canlı kitab" verilişinin rəsmi "Facebook" səhifələrində aparılır. "Canlı kitab" kanalını buradan izləyə bilərsiniz: <youtube.com/c/CanlıKitab>

# "Azercell"dən Paralimpiyaçılarımıza dəstək

R




**Avqustun 24-də Tokioda XVI Yay Paralimpiya Oyunlarına start verilir. "Azercell Telekom" MMC Milli Paralimpiya Komandasının məğrur tərəfdaşı olmaqla növbəti dəfə ölkəmizdə paralimpiya hərəkatına sədaqətini nümayiş etdirir.**

Təqdirəlayiq haldır ki, bu oyunlarda Milli Paralimpiya komandası rekord sayda lisenziya ilə Azərbaycanı təmsil edir. Tokioda yarışacaq Azərbaycan Milli Paralimpiya Komandasına 23 kişi və 12 qadın olmaqla 35 idmançı daxildir. İdmançılarımız altı idman növü: cüdo, atletika, taekvondo, pauerliftinq, üzgüçülük və güllə atıcılığı üzrə 47 kateqoriyada medallar uğrunda mübarizə aparacaqlar. Bu il açılış mərasimində Paralimpiya çempionu Oloxan Musayev komandamızın bayraqdarıdır.

Azercell Tokio 2020 XVI Yay Paralimpiya Oyunlarında məğrur tərəfdaş olmaqla, oyunların ruhunu paylaşmağa və paralimpiya hərəkatının təşviqinə kömək edir. Böyük sosial əhəmiyyəti olan və mənəvi dəyərləri əks etdirən Paralimpiya oyunları dünya idman hərəkatında ən önəmli hadisələrdən birinə çevrilməkdədir. Son illər Paralimpiya oyunlarında iştirakçıların sayı və ölkələrin coğrafiyası ildən-ilə artır. Azərbaycanda da paralimpiya hərəkatına xüsusi diqqət yetirilir. Azercell şirkəti 2014-cü ildən etibarən Azərbaycan Uşaq Paralimpiya Komitəsini dəstəkləyir. Bu dəstək sayəsində hazırda sağlamlıq imkanları məhdud olan 200-ə yaxın uşaq və yeniyetmə 10 idman növü üzrə məşğul olur, kütləvi idman tədbirləri, yerli və beynəlxalq əhəmiyyətli yarışlarda iştirak edirlər. Bu uşaqların cəmiyyətə inteqrasiya olunmasına dəstək vermək və onların idmana həvəsini artırmaq məqsədilə "Azercell Telekom" MMC-nin iştirakı ilə hər il ölkəmizdə Uşaq Paralimpiya oyunları təşkil edilir.

Qeyd edək ki, sentyabrın 5-dək davam edəcək XVI Yay Paralimpiya Oyunlarında dünyanın 136 ölkəsindən 4400 idmançı iştirak edir. Onlar 22 idman növü üzrə 540 dəst medal uğrunda yarışacaqlar. Azərbaycanlı idmançılar indiyədək Paralimpiya Oyunlarında 9 qızıl, 18 gümüş, 11 bürünc olmaqla ümumilikdə 38 medal əldə ediblər. Olimpiya dəyərlərinə dəstək olan Azercell şirkəti idmançılarımız üçün sayca 7-ci olan bu oyunlarda komandamıza əzmlə çıxış etməyi, möhtəşəm qələbə ilə Vətənə dönməyi arzulayır.

# "Suriyada insanlar cəmi 15 dollar maaş alır"

## Dünya

***Tarixən Azərbaycanla sıx əməkdaşlıq içində olan Suriya məlum müharibələr ucbatından son illər əlçatmaz, insanlarımızın gediş-gəlişi mümkünsüz ölkəyə çevrilib. Xeyli müddətdir burada çox böyük humanitar faciə yaşanmaqdadır: milyonlarla insan ev-eşiyindən qaçqın düşərək dünyanın dörd bir yanına səpələnib, yüzminlərlə ölən, bir o qədər də yaralılar var. Çox təəssüf ki, Suriyanın adı son illər Azərbaycana qarşı təxribatlarda da hallandı. Söhbət bəzi suriyalıların Ermənistan ordusunun sıralarında Azərbaycana qarşı döyüşməsindən gedir.***



**Məhəmməd Salah Akeş,**
Suriya Beynəlxalq Gənclər Təşkilatının - "JCİ Suria"nın fəalı

Düzdür, müharibə Şanlı Ordumuzun qələbəsi ilə başa çataraq tarixə qovuşdu. Suriya içinə düşdüyü vətəndaş savaşının bataqlığından xilas ola bilmədi. Ermənilərin təxribatına uymuş suriyalıların söz-söhbəti bitib.

Suriyada fəaliyyət göstərən, məqsədi dünyanı dəyişərək xoşbəxt cəmiyyət qurmaq olan Suriya Beynəlxalq Gənclər Təşkilatının - "JCİ Suria"nın fəallarından Məhəmməd Salah Akeşlə internet üzərindən qısa, amma maraqlı söhbətimiz oldu. Ölkəsinin və xalqının düşdüyü bəladan ürək ağrısı ilə danışdı:

- Suriyada sosial vəziyyət heç də yaxşı deyil. Uzun illərdir davam edən qanlı müharibə nəticəsində ölkəmizdəki bütün infrastruktur dağıdılıb, əksər iqtisadi-sosial obyektlər məhv edilib. Vəziyyət belə davam edə bilməz. Müharibədə məhv edilənlərin bərpası və şəhərlərin, kəndlərin yenidən qurulması, gənclərə iş imkanlarının yaradılması baxımından çox vacibdir. Müharibə suriyalıların sosial yaşamını zərbə altına qoyub. Suriyaya qarşı tətbiq edilmiş embarqolar nəticəsində xalqımızın 80 faizdən çoxu ya qaçqındır, ya da ölkə içində qohumlarının və ya ailə üzvlərindən birinin yardımları sayəsində yaşamını davam etdirir. Ümumilikdə, insanlarımız yardımdan asılı vəziyyətə düşüb.

***- Siz gənclərin vəziyyəti necədir? Gündəlik yaşam tələblərinizi ödəmək imkanınız varmı? Məncə, müharibə çox şeyləri alıb sizlərdən...***

- Tam səmimi olaraq minlərlə suriyalı və şəxsən öz adımdan danışacağam: Avropa ölkələrinə sığınan gənclərdən fərqli olaraq, Suriyadakı gənclər qorxulu və aydın olmayan gələcəklə qarşı-qarşıyadır. Bu gün ölkəmizdə aylıq ehtiyacımızı ödəmək üçün, məhdud da olsa, iş yerləri var, bu sadəcə insanların gündəlik ehtiyaclarını təmin etməyə bəs edir. Bu, əhalinin, xüsusilə də gənclərin zəruri ehtiyaclarını təmin etmək üçün kifayət deyil. Məcburi hərbi xidmət onsuz da ağır olan yaşamı daha da ağırlaşdırır. Ölkəni yandırıb-yaxan yüksək qiymətlərə, bahaçılıq və məhsul qıtlığına uyğunlaşmaq çətindir. Məhz bu çətinliklər üzündən gənclər ailə qura bilmir. Evlənməyin, ailə qurmağın xərcləri hər kəsin cibinə uyğun deyil. Bu gün Suriyada sosial durum o qədər ağırdır ki, deməyə söz tapmıram. Təsəvvür edin, insan bir ay durmadan işləyir, ayın sonunda cəmi 15 dollar maaş alır. Hansı ki, ölkəmizdə normal yaşamaq üçün bir adama ayda 300 dollar qazanması lazımdır. Bütün bu məhrumiyyətlər üzündən Suriyalı gənc kişilər, hətta qadınlar xarici ölkələrdən sığınacaq istədilər və ya Avropa universitetləri tərəfindən verilən təqaüdlərlə təhsil almaq üçün mühacirət etməyə məcbur oldular.

***- Azərbaycandan baxanda indiki Suriyada nə görürük: təhlükəli həyat mücadiləsi, bombalanıb xarabaya çevrilmiş şəhər və kəndlər, yüz minlərlə ölüm faktı, milyonlarla qaçqın və onların da böyük qismi xaricə qaçıb... Xalqınızın başına gələn bütün bu müsibətlərin əsl günahkarı kimdir, son onillikdə nələr baş verib Suriyada?***

- Suriyada yaşanan bugünkü sosial fəlakətin məsuliyyəti ölkəmizə hərbi müdaxilə edənlərin üzərindədir. Xarici ölkələr, eləcə də onların sıralarına qatılıb qarşıdurmalarda iştirak edən yerlilərin hər biri məsuliyyət daşıyır. Bu müharibə onu aparanları deyil, məhz sadə xalqı pis vəziyyətə salıb.

***- "Covid-19"la bağlı vəziyyət necədir, ölkəniz aşı ala bilirmi, insanların aşılanma prosesi necə gedir, hansı aşılar vuruluq sizdə?***

- Hökumət ilk vaxtdan ölkədə pandemiyanın qarşısını almaq üçün tədbirlər görə bilmədi. Uzun illərdir davam edən amansız müharibə və iqtisadi blokadalar nəticəsində yaranmış iqtisadi-sosial böhran onsuz da xalqın güzaranını ağırlaşdırmışdı. İnsanlar gündəlik yeyəcəklərini qazanmaq üçün işləməyə məcbur idilər.

Bu səbəbdən də iş yerlərinin bağlanılması mümkünsüz idi. Bu da ölkədə epidemioloji vəziyyəti ağırlaşdırdı, xəstəlik nəzarətdən çıxdı. Biz hər şeyə inamla baxırıq. Çətinliklərə baxmayaraq, əhalinin aşılanması prosesi normal qaydada davam edir. Hökumət müxtəlif vasitələrlə xalqımızı "Sputnik", "Pfizer-BioNTech" aşıları ilə təmin edir.

***- Azərbaycanla bağlı nələr düşünürsünüz? Suriyalı insanlar, xüsusilə də siz gənclərin Azərbaycan haqda görüşlərini bilmək çox maraqlıdır...***

- Azərbaycanı son zamanlar idman yarışlarının mərkəzinə çevrilmiş ölkə olaraq tanıyıram. Avropa idman yarışlarını "İdman Azerbaijan" kanalından izləyirəm. Həmin kanallar həm də yarışlararası fasilələrdə Azərbaycanın əsrarəngiz gözəlliklərini, paytaxtla yanaşı bölgələrinin gözəlliyindən bəhs edən sənədli videolar da göstərir ki, bu, məndə Azərbaycanla bağlı çox yaxşı təəssüratlar yaradıb.

***- Azərbaycan torpaqlarının 20 faizi uzun illər idi, rusların köməyi ilə Ermənistan ordusu tərəfindən işğal olunmuşdu. Bir milyondan çox azərbaycanlı insan evlərindən qovulmuşdu. Minlərlə şəhidimiz vardı. Hansı ki, bu gün Suriya da eyni aqibəti yaşayır. Maraqlıdır, siz suriyalılar Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edildiyini bilirdinizmi?***

- Hə, əlbəttə. Bilirik ki, Ermənistanla Azərbaycan arasında müharibə var. Çox təəssüf ki, Suriyada uzun illərdir müharibə getdiyi üçün biz xarici ölkələrdə nə baş verdiyini ardıcıl izləyə və mahiyyətini öyrənə bilmirik.

***- Çox şükürlər olsun, ötən il cəmi 44 gün davam edən Vətən müharibəsi nəticəsində Azərbaycan Ordusu erməni işğalçıları torpaqlarımızdan qovdu. İndi Azərbaycan öz torpaqlarını geri qaytarıb, tikinti-quruculuq işləri görülür və inşallah yaxın illərdə bütün qaçqınlar torpaqlarına dönəcəklər. Hazırda işğal zamanı dağıdılmış ərazilərdə şəhərlər, kənd və qəsəbələr tikilir, infrastruktur yaradılır. Təəssüf ki, bəzi suriyalılar müharibə dövründə ermənilərə dəstək verdi...***

- Mən ölkəmdəki vəziyyətlə əlaqədar sadəcə onu bilirəm ki, Ermənistanla Azərbaycan arasında müharibə olub. Siz deyirsiniz suriyalılar Qarabağda ermənilərə dəstək veriblər. Şəxsən mən düşünmürəm ki, hansısa suriyalı Azərbaycana qarşı bu addımı ata və ya azərbaycanlılarla bağlı mənfi fikirdə ola bilər. Bu mümükünsüzdür.

***- Bir söz deyəcəyəm, amma səmimi qəbul edin: müharibə zamanı Suriyadan gələn döyüşçülər ermənilərə kömək edir, bizə - müsəlman azərbaycanlılara qarşı döyüşürdülər. Bu bizi çox məyus elədi. Axı Azərbaycan xalqı heç vaxt Suriya xalqının pisliyini istəməyib, sizi xoşbəxt görmək istəmişik. Elə isə suriyalılar niyə bizə yox, bizim düşmənlərimizə, qəsbkar ermənilərə kömək edirdi?***

- Yenə deyirəm: ermənilərlə müharibədə sizə qarşı vuruşan suriyalıların olub-olmaması barədə heç bir fikrim yoxdur. Onu dəqiq deyə bilərəm ki, bu gün Suriyada çox sayda erməni yaşayır. Çox güman ki, Ermənistan tərəfindən Azərbaycana qarşı məhz həmin ermənilər döyüşüblər.

> *Bütün bu məhrumiyyətlər üzündən Suriyalı gənc kişilər, hətta qadınlar xarici ölkələrdən sığınacaq istədilər*

***- Hazırda siz suriyalıların xarici ölkələrə səfər etməsində hər hansı çətinlik varmı? Suriya vətəndaşları istədikləri ölkəyə gedib-gələ bilirlərmi?***

- Suriyalılar xaricə səyahət etmək istədikdə çox çətin problemlərlə üzləşirlər. Onlar səyahət edəcəkləri istənilən ölkədən viza almalıdırlar. Məlum embarqolarla əlaqədar olaraq ölkələr bizə viza vermirlər. Xaricdən kiminsə Suriyaya səfər etməsinə gəlincə, düşünmürəm ki, hansısa çətinliklə qarşılaşalar, kim istəsə rahatlıqla gələ bilər...

*✍ Vüsal Tağıbəyli*

# Problemli kreditlərlə bağlı statistikaya tam etibar etməmək olmaz

**"Problemli kreditlərin həcmi yüksəlib. Ötən illə müqayisədə görürük ki, bu istiqamətdə artım var. Amma göstərilən statistikaya etibar etmək olmaz. Çünki problemli kreditlərin həcmi açıqlanan statistikadan daha yüksəkdir".**



Bu fikirləri hafta.az-a açıqlamasında bank məsələləri üzrə mütəxəssis Əkrəm Həsənov bildirib.

Onun sözlərinə görə, bankların əksəriyyəti çox zaman həqiqi statistikanı açıqlamır: "Ötən il Mərkəzi Bankın tövsiyəsində bildirilirdi ki, banklar pandemiyaya görə sentyabrın 30-a qədər həm vətəndaşların, həm də sahibkarların kreditləri üzrə vaxtında ödəniş etməmələrini gecikmə hesab etməsinlər.

Həmçinin də həmin müştərilərə gecikməyə görə cərimə hesablamasınlar. Yəni, ötən il banklara deyilmişdi ki, problemli kreditləri göstərməyin, onlar da göstərmirdilər. Həm də banklar bu cür kreditlərin həqiqi miqyasını göstərmir ki, əlavə ehtiyat yaratmasınlar. Ona görə də rəsmi statistikaya tam etibar etmək olmur".

Xatırladaq ki, Mərkəzi Bankın rəsmi elan etdiyi göstəricilərə əsasən, bu ilin birinci yarısında problemli kreditlərin həcmi yenidən artıb. Belə ki, ötən ili 893 milyon manat problemli kredit portfeli ili başa vuran banklarda bu ilin ilk yarısında bu göstərici 914 milyon manata yüksəlib. Bu, o deməkdir ki, yalnız son 6 ayda problemli kreditlərin həcmi 2.3 faiz artıb. İyun ayının yekunlarında problemli kreditlərin həcmində aylıq artım 7.7 milyon manat olub.

ELAN

**M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti tərəfindən 1998-ci ildə Yaqubova Zülfiyyə Ziyad qızının adına verilmiş A 018548 nömrəli diplomun əlavəsi itdiyi üçün etibarsız sayılır.**

## HƏFTƏ REYTİNQ

### Həftənin QƏRARI



Bütün ümumi təhsil müəssisələrinin IX (doqquzuncu) siniflərində dərsdənkənar məşğələlərə ayrılan saatlardan bir saatı dərs cədvəlinə daxil edilməklə "Zəfər tarixi" kursunun tədrisinə veriləcək. Bu barədə məlumat təhsil naziri Emin Əmrullayevin imzaladığı ümumi təhsil müəssisələrinin 2021-2022-ci dərs ili üçün tədris planında əksini tapıb. Sənədə əsasən, tədris dilindən asılı olmayaraq, bütün siniflərdə kurs dövlət dilində - Azərbaycan dilində tədris olunacaq.

### Həftənin XƏBƏRDARLIĞI



"Taliban" Qərb güclərinin Əfqanıstandan çəkilməsi üçün son müddət olaraq müəyyənləşdirilən 31 avqust tarixinin uzadılmayacağını bəyan edib. Bunu "Taliban" sözçüsü Suhail Şahen "SKY News"a açıqlamasında bildirib. "Bu tarix "qırmızı xətt"imizdir. Bu müddəti uzatmağın nəticələri olacaq. ABŞ və ya İngiltərə təxliyyələrə davam etmək üçün əlavə müddət tələb etsə, cavabımız "yox" olacaq", - o qeyd edib. ABŞ Prezidenti Co Bayden bütün amerikalıların ölkəni tərk etməsi üçün 31 avqustu son tarix olaraq müəyyənləşdirib, ancaq İngiltərə hər kəsi təxliyyə etmək üçün əlavə iki həftəyə ehtiyac olduğunu vurğulayır.

### Həftənin DƏLƏDUZU



Bir qrup şəxs Daxili İşlər Nazirliyinə müraciət edərək paytaxt sakini olan Babayev Aqil Zalış oğlunun 2000-2021-ci illər ərzində dələduzluq, yəni etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə onların külli miqdarda pullarını ələ keçirdiyini bildiriblər. Nazirliyin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində aparılan araşdırmalar zamanı müəyyən edilib ki, Aqil Babayev bu illər ərzində inanclı insanlar arasında özünü zühur etmiş 12-ci İmam Mehdi kimi təqdim edib. Təşkil etdiyi dini məclislərdə Aqil Babayev guya yer üzünə ilahi qüvvə tərəfindən yaxşılıqlar və maddi çətinliyi olan insanlara köməklik etmək məqsədilə göndərildiyini, axirət əzabından xilas olmaq üçün ona inanmağın vacib olduğunu bildirib. Bu yollarla insanları təsiri altına salan Aqil Babayev hər ay ona pul ödənişləri edilməsini tələb edib və topladığı maddi vəsaitlərin guya kasıb insanlara onun vasitəsi ilə paylanıldığı görüntüsü yaradıb. Hətta Aqil Babayevin zərərçəkənlərin etibarından sui-istifadə edərək Vətən Müharibəsi dövründə şəhid və qazi ailələri üçün guya bina tikib onların mənzillərlə təmin edilməsi adı altında da külli miqdarda pul vəsaitini ələ keçirdiyi ortaya çıxıb.

### Həftənin ETİRAFI



"Ermənistan tərəfindən Qarabağ münaqişəsi zamanı (44 günlük müharibə - red) 3773 hərbçi ölüb". Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan yeni parlamentin təqdim olunması zamanı parlamentdə çıxışında deyib. Paşinyanın sözlərinə görə, daha 243 hərbçi müharibə vaxtı itkin düşüb. Qeyd edək ki, Ermənistan tərəfinin yaydığı ən son rəsmi məlumatlarda ölkənin itkilərinin 3621 nəfər təşkil etdiyi bildirilirdi.

### Həftənin QALİBİ



Rusiyanın Ufa şəhərində gənclər arasında dünya çempionatı başa çatıb. Çempionatın son günündə yunan-Roma güləşi üzrə Azərbaycan yığmasının nümayəndələri iki medal qazanıblar. Həsrət Cəfərov (67 kq) finalda Sahak Ovannisyana (Ermənistan) 7:0 hesabı ilə qalib gəlib və çempion olub. Nihat Məmmədli (67 kq) bürünc medal qazanıb, Xasay Həsənli (72 kq) isə üçüncü yer uğrunda döyüşdə uduzub. Güləşçilərimiz ümumilikdə bir qızıl, dörd gümüş və altı bürünc medal qazanıblar.

### Həftənin QAZANANI



Seriallardan ən çox qazanan dünyaca məşhur simaların adları açıqlanıb. Bir seriyaya görə ən çox gəlir əldə edən ulduzların siyahısını "Variety" açıqlayıb. Bildirilir ki, siyahıda birinci pillədə aktyor Kris Pret yer alıb. O, "Terminal list" adlı ekran işinin bir bölümü üçün 1,4 milyon dollar qazanır. Ceff Brices "The Old Man" serialında bir bölümə görə 1 milyon dollar əldə edir. Brayan Krenston "Your Honor" serialında bir seriyada iştirakına görə 750 min dollar əldə edir. Dördüncü pillədə yer alan Sara Cesika Parker, Sintiya Nikson və Kristin Devis "And Just Like That" serialının bir seriyasına görə 650 və 750 min dollar aralığında gəlir qazanır. Və son olaraq, 5-ci pillədə yer alan dünya ulduzu Keyt Uinslet "Mare of Easttown" serialında bir bölümdə iştirakına görə 650 min dollar əldə edir.

*✍ Azad Əliyev*

## GÜNÜN FOTOSU



**Tokioda paraolimpiya oyunları başladı...**

## Bu evlərin qiyməti bahalaşacaq

**Ramil Qasımzadə,**
əmlak eksperti

Bütün bu proseslər pandemiyadan öncə yekunlaşsa da, müzakirələr hələ də davam edirdi.

Səh. 4

## STATİSTİKA



■ Dünyada insanların fəaliyyəti nəticəsində qızılgül və onun hibridlərinin 50 mindən artıq növü yayılıb.

■ Dünyanın ən bahalı gülü qızıl arxideyadır. Malayziya dağlarında bitən bu gülün qiyməti təxminən 5 min dollardır.

■ Bir unsiya (28 qram) zəfəran almaq üçün 5 min zəfəran çiçəyi toplanılmalıdır.

■ Avstraliyada bitən tropik çiçəklərin 80 faizinə dünyanın heç bir yerində rast gəlmək mümkün deyil.



Səh. 6

## Xaricdə təhsil alan gənclərimiz